

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 095 (6778)

1 iyun 2023-cü il.
Qiymıti 60 qəpik

## YAP Sədrinin müavini ÇKP-nin Uhan şəhər komitəsinin katibi ilə görüşüb



5

# Prezident açıqladı: "Azərbaycan qazına ehtiyac artmaqdadır"




*Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində iştirak edib*

2

# Balkan kartı masada





5

## 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür



9

## Kəndirdə yellənən gələcək



11

## Bu ölkə dünya xəritəsindən silinəcək, əgər...




11

## Uşaqlar Allaha bizdən şikayət edəcək



15

## "Azərbaycanın sülhə məcburetmə hüququ var"

Bundan sonra Nikol Paşinyan parlamentdə tezisini irəli sürməyə başladı ki, ola bilsin bu cür bəyanatlarla Azərbaycan Bakı və İrəvan arasındakı razılaşmalardan, ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanımaqdan imtina edib.



14

# Prezident açıqladı: “Azərbaycan qazına ehtiyac artmaqdadır”

*Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində iştirak edib*







***Azərbaycan Prezidenti İlham Əliyev mayın 31-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - “Caspian Oil&Gas” və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - “Caspian Power” sərgilərinin açılışında iştirak edib. Əvvəlcə tədbirin moderatoru, Böyük Britaniyanın “ICA Group” şirkətinin İdarə Heyətinin məsləhətçisi Rassel Teylor çıxış edib. Daha sonra dövlətimizin başçısı açılış mərasimində çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki “Həmrəylik Halqası” adlandırılan digər bir layihəyə Azərbaycan, Bolqarıstan, Macarıstan, Rumıniya və Slovakiya daxildir. Bu da elə bir layihədir ki, orada əlavə interkonnektorlar inşa ediləcək.***

## *“Biz 2027-ci ilədək Avropa bazarına qaz təchizatını iki dəfə artırmağı planlaşdırırıq”*




## *“Azərbaycanın nəhəng bərpaolunan enerji potensialı var”*

“Bizim təchizatın coğrafiyası, əminəm ki, genişlənməkdə davam edəcək. Çünki Azərbaycan qazına ehtiyac artmaqdadır. Son il yarım ərzində bizə 10-dan artıq ölkə müraciət edib ki, təchizatın həcmini artıraq və ya həmin ölkələrə təchizata başlayaq. Əlbəttə, biz bütün dostlarımızın ehtiyaclarını ödəməyə çalışırıq. Sərmayələri də əlaqələndirməliyik ki, bazar imkanları nəzərə alınsın”, - deyə dövlətimizin başçısı qeyd edib.

Bu işdə beynəlxalq maliyyə institutlarının dəstəyinə ehtiyac olduğunu vurğulayan Azərbaycan Prezidenti deyib: “Bilirik ki, bu gün “yaşıl enerjiyə” gəldikdə, bəzi beynəlxalq maliyyə institutları neft-qaz sahəsini maliyyələşdirməyi dayandırıb. Amma mən hesab edirəm ki, biz bir balaca realist olmalıyıq. Çünki qaz və neft təchizatı olmadan enerji təhlükəsizliyi tam olaraq təmin edilə bilməz”.

Dövlətimizin başçısı deyib ki, Azərbaycanın nəhəng bərpaolunan enerji potensialı var. Onun artıq ilkin hesablaması aparılıb, 157 qiqavat həcm yalnız Xəzər dənizindədir. Quruda isə bizim potensialımız çox böyükdür. Beynəlxalq investorlarla imzalanmış iki müqavilə növbəti bir il, ya da il yarım ərzində 500 meqavata yaxın “yaşıl enerji” əldə etməyə imkan verəcək. “Ümumilikdə saziş və memorandumları nəzərə alsaq, biz artıq 25 qiqavatlıq sazişlər imzalamışıq. Əlbəttə, anlaşma memorandumu imzalamaq o demək deyil ki, o, dərhal reallaşacaq və müqavilə olacaq. Ancaq biz elə şirkətlərlə anlaşma memorandumları imzalamışıq ki, onlar bərpaolunan enerji sahəsində qlobal liderlərdir. Ona görə də bunların real müqaviləyə çevrilməsi ehtimalı olduqca yüksəkdir”.

Prezident qeyd edib ki, imzalanan memorandumların yarısı belə reallaşsa, bu, Azərbaycanın özünün daxili istehlakından iki dəfə artıq olacaq. Əlbəttə, görüləcək işlər çoxdur, TANAP genişlənməlidir, TAP genişlənməlidir. Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır və Balkanlarda belə bir çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır.

“Bütün bu məsələlər əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Çünki biz burada böyük sərmayə qoymalıyıq. Ona görə biz əmin olmalıyıq ki, hasil etdiyimiz əlavə qazın, planlaşdırmadığımız həcmlərin, - biz ancaq artan tələbatı nəzərə alaraq bunu hasil edirik, - real alıcısı olacaqdır. Ona görə də biz bu komanda işini davam etdirməliyik”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Azərbaycan Prezidenti deyib ki, Cənub Qaz Dəhlizi layihəsi artıq başa çatsa da Məşvərət Şurasının işi hər il fevral ayında Bakıda davam edir: “Növbəti toplantı üzümüzə gələn fevral ayında Bakıda keçiriləcəkdir. Çünki artıq yeni iştirakçılarımız var, yeni ideyalarımız var, planlarımız var. Biz bunları reallaşdırdıqca bütün işlərimiz uğurla gedəcəkdir”.

Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, Yunanıstan-Bolqarıstan interkonnektoru ilə Azərbaycan Bolqarıstana da qaz nəql edəcək. Biz Bolqarıstan vasitəsilə digər ölkələrə də qazın nəqli imkanlarını nəzərdən keçiririk və tezliklə qonşu ölkələrə də bizim qazımız nəql ediləcək. Rumıniya artıq bu əməkdaşlıq formatının üzvüdür.

“Hər şey plana uyğun getsə və bütün interkonnektorlar vaxtında inşa edilsə, - yəni, bu ilin sonuna qədər, - bizim qazımız Macarıstana və Serbiyaya nəql ediləcək. Bununla da bizim qaz ixracımızın coğrafiyası genişlənəcəkdir”, - deyə dövlətimizin başçısı vurğulayıb.

“Bu gün daha çox Avropa ölkəsi Azərbaycanla əməkdaşlıq edir. Bizim planımız ondan ibarətdir ki, 2027-ci ilə qədər Avropa bazarına qaz təchizatımızı iki dəfə artıraq. Bu, olduqca real rəqəmdir. Bizim qaz təchizatımızın dinamikasına nəzər salsaq görərik ki, ötən il 8 milyard kubmetr idi, bu il 12 milyard kubmetr nəql edəcəyik. Bu, bizim ümumi ixracımızın yarısıdır və 2027-ci il üçün biz bu rəqəmi 20 milyarda çatdıracağıq. Bunun üçün mənbələr artıq var, onlardan biri bizim nəhəng “Şahdəniz” yatağımızdır, digər yataq “Abşeron”dur”, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident İlham Əliyev ümid etdiyini bildirib ki, olduqca qısa bir zamanda “Abşeron”dan çox yaxşı xəbərlər alınacaq: “Oradan çox qısa bir zamanda ilk qaz alacağımıza dair xəbər gözləyirik”. Sonra ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyatt çıxış edib:

Mən böyük məmnuniyyətlə Bakı Enerji Həftəsində iştirak edirəm. Otuz ildən artıqdır ki, ABŞ və Azərbaycan Respublikası uğurla əməkdaşlıq edir. ABŞ Cənubi Qafqaz regionunda sabitlik, firavanlıq və müstəqilliyin tərəfdarıdır. Biz Azərbaycanın Ukraynanın ərazi bütövlüyünə və müstəqilliyinə göstərdiyi güclü dəstəyə görə təşəkkür edirik.

Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaş olub. ABŞ bundan sonra da əməkdaşlığı davam etdirəcək və əmindir ki, etibarlı enerji mənbələri Azərbaycan tərəfindən təmin olunacaq. Əlbəttə ki, mühüm iqlim hədəflərimizlə bağlı da əməkdaşlıq edəcəyik. İndi isə Prezident Baydenin məktubunu səsləndirirəm.

Daha sonra Cefri Pyatt ABŞ Prezidenti Cozef Baydenin Prezident İlham Əliyevə məktubunu oxuyub. Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson çıxış edərək, Böyük Britaniyanın Baş naziri Rişi Sunakın Prezident İlham Əliyevə məktubunu oxuyub. Çıxışlardan sonra dövlətimizin başçısı Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - “Caspian Oil&Gas” və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - “Caspian Power” sərgiləri ilə tanış olub. Prezident İlham Əliyev Sərginin xatirə kitabını da imzalayıb.

# Prezident İlham Əliyev Moldovada səfərdədir





***Prezident İlham Əliyev "Avropa siyasi birliyi" 2-ci Zirvə Toplantısında iştirak etmək üçün mayın 31-də Moldova Respublikasına səfər edib. Kişineu şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısını rəsmi şəxslər qarşılayıblar. Mayın 31-də Kişineuda Azərbaycan Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşü olub. Prezident Maya Sandu dövlətimizin başçısını Müstəqillik Günü və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik etdi.***

"Avropa siyasi birliyi"nin Zirvə toplantısının Moldovada keçirilməsi ilə bağlı təbriklərini çatdıran Prezident İlham Əliyev belə böyükmiqyaslı tədbirin dost Moldovada təşkil edilməsini müsbət qiymətləndirdi. Görüşdə ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğu qeyd edildi, enerji, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə toxunuldu, əlaqələrimizin perspektivləri müzakirə olundu.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edildi. Beynəlxalq təşkilatlarda ölkələrimizin qarşılıqlı dəstəyi yüksək qiymətləndirildi, bu xüsusda Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri vurğulandı.

Maya Sandu "Avropa siyasi birliyi"nin Moldovada keçirilən Zirvə toplantısı çərçivəsində dövlətimizin başçısının Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə Ermənistanın baş nazirinin, Almaniya və Fransa liderlərinin iştirakı ilə keçiriləcək beştərəfli görüşünü müsbət addım kimi qiymətləndirdi. Dövlətimizin başçısı Moldova Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Dünən Azərbaycan Prezidenti İlham Əliyev Kişineuda Moldova Respublikasının Baş naziri Dorin Reçan ilə görüşüb. Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən Moldovanın Baş naziri dövlətimizin başçısının "Avropa siyasi birliyi"nin Zirvə toplantısında iştirakına görə minnətdarlığını ifadə etdi. Dorin Reçan Müstəqillik Günü və Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Prezidentini təbrik etdi. O, Ümummilli Liderin nümunəvi şəxsiyyət olduğunu vurğuladı.

Prezident İlham Əliyev "Avropa siyasi birliyi"nin Zirvə toplantısının Moldovada keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Baş nazir Azərbaycanın Moldovaya göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə etdi. Söhbət zamanı Azərbaycan ilə Moldova arasında kənd təsərrüfatı, elektroenergetika, sərmayələr, infrastruktur layihələri ilə bağlı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd edildi. Moldovanın üzümçülük və şərabçılıq sahəsində geniş təcrübəsinin, Azərbaycanın da bu sahədə zəngin ənənələrinin olduğu vurğulandı. Bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olduğu bildirildi. Dövlətimizin başçısı Moldovanın Baş nazirini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

# "Avropanın Enerji təhlükəsizliyində Azərbaycan liderlik rola sahibdir"

## *Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisini qəbul edib*

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyattı qəbul edib. Cefri Pyatt Bakıda Enerji Həftəsinin əhəmiyyətini qeyd etdi. Qonaq Avropanın Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın liderlik rolunu yüksək qiymətləndirdi.***

Prezident İlham Əliyev Cefri Pyattın bu tədbirdə iştirakının önəminə toxunaraq, ABŞ hökumətinin Azərbaycanın enerji sahəsində irəli sürdüyü təşəbbüsləri daim dəstəklədiyinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı ölkəmizin uzun illər ABŞ ilə enerji sahəsində fəal surətdə əməkdaşlıq həyata keçirdiyini və genişmiqyaslı birgə layihələri uğurla reallaşdırdığını qeyd etdi. Azərbaycan Prezidenti bu xüsusda ABŞ hökumətinin TAP layihəsinə verdiyi dəstəyi vurğuladı.

Görüşdə Azərbaycanın bölgənin enerji təhlükəsizliyinə verdiyi töhfə, ölkəmizdə bərpaolunan enerji sektorunun inkişafı istiqamətində sürətlə həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycanın enerji təchizatında sabitləşdirici rol oynadığı xüsusi vurğulandı, ölkəmizin Orta Dəhliz çərçivəsində enerji və qeyri-enerji məhsulları üçün dayanıqlı tranzit və nəqliyyat imkanlarının yaradılması məsələsinə toxunuldu.



# Laçınlılar doğma yurdlarında!



**İlham Əliyev: "Həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik"**

30 ilə yaxın öz ata-baba yurdundan uzaq düşən, əzəli torpaqlarımızın həsrəti ilə yaşayan insanlar artıq vətən torpağının ətrini duyurlar. 44 günlük Vətən müharibəsi bu insanların acı talelərinə bir sevgi, əbədi bir dünya bəxş etdi. Vaxtilə qovhaqovla el-obalarından qaçqın düşənlərin ruzigarlarına salınan naxış bu gün öz rəngini dəyişib. Viran qalmış yurd yerlərinə əzəli sakinlər artıq sahibdirlər. Aylarını, illərini bir gün yenidən doğma yurdlarımıza qaydıcağıq ümidi ilə yaşayan doğmalarımız bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan torpaqlarımıza qovuşurlar. Bu tarixi bölgələrimizdə vaxtilə orta əsrlərdə tikilmiş türbələr, məscidlər xalqın inam, etiqad yerinə çevrilib. Qarabağdakı türbə və məscidlər, Şuşa şəhərindəki məscid kompleksləri tarixi məkanlar olmaqla orta əsrlər fikir tariximizin daha dərindən araşdırılması baxımından mükəmməl abidələr hesab olunur.

Əlbəttə ki, 30 il erməni işğalında qalan ərazilərimizdə erməni vandalların törətdikləri vəhşiliklərin nəticəsində yurd yerləri dağıdılmış, viran qoyulmuşdur. Əqli mülkiyyətimizə, maddi mədəniyyət abidələrimizə böyük ziyan dəymişdir. Bunu dünyanın istənilən bir ölkəsindən gələn və Qarabağa səfər edən dinindən, irqindən asılı olmayaraq, insanlar görmüş oldu. Bu gün də işğaldan azad olunan ərazilərimizə edilən səfərlər zamanı hər qarışda rast olunan vandallığa insanlar qəzəb və nifrəti ifadə edirlər.

Qarabağ, eyni zamanda onun ətrafında yerləşən Azərbaycan ərazilərində Birinci və İkinci Qarabağ müharibələri zamanı qismən və ya tamamilə dağıdılmış, talan edilmiş və ya hər hansı bir şəkildə zərər çəkmiş tarix-memarlıq abidələrimiz əlbəttə ki, tədricən bərpa və təmir olunur və olunacaqdır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlər 30 ildən sonra könüllü olaraq təhlükəsiz və yaşayış üçün yararlı olan doğma yurdlarına qayıdırlar. Ağalı və Talış kəndindən sonra əzəli torpaqlarımızın sahibləri olan laçınlıların da bir qismi öz yurdlarına qayıtdılar. Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim etməsi tarixi bir gün olaraq əbədiləşdi. "Bu gün Müstəqillik Günüdür. Əziz laçınlılar, ilk növbədə sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm. Bu gün ikiqat bayramdır. Çünki bu gün Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar və bu münasibətlə həm sizi, həm də bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı çıxış edərkən bildirib. Görüşü məhz 28 May tarixində təşkil etməyin böyük rəmzi mənasısı olduğunu bildirən dövlət başçısı qeyd edib ki, bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir: "Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır".

Bu, əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. Azərbaycan Prezidentinin sözlərinə görə, 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. "Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək" – deyən Prezident ilin sonuna qədər daha çox insanın Laçında yaşaya biləcəyini diqqətə çatdırıb. Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu - İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb. Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı nəzərə alınaraq şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb. Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək. Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq.

### "CƏNNƏTİN ƏGƏR TƏSVİRİ VARSA, BU GÜN BAX, BUDUR"

Məktəb yeni dərs ili üçün hazır olacaq, bütün digər lazımi şərait də yaradılır. Bütün bunlarla yanaşı, onlarla müəssisənin yaradılması nəzərdə tutulur. "Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq. Yəni, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır və gördüyünüz kimi, bu gün Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir", - deyə Prezident bildirib: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun. Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda yaradılmaqda olan bütün şəhər və kəndlərimiz təxminən bax bu səviyyədədir. Dünən Kəlbəcər və Laçın rayonlarında yeni yaradılan və yaxın gələcəkdə istifadəyə veriləcək kəndlərin təməlqoyma mərasimlərində iştirak etmişəm. Yəni, azad edilmiş bütün ərazilərdə geniş quruculuq işləri aparılır. Yəni, bu, bir daha onu göstərir ki, biz - o torpaqların sahibləri gəlmişik qurmaq üçün, yaratmaq üçün".

### "LAÇININ AZAD OLUNMASININ VƏ BU GÜN BİZİM BURADA KEÇİRDİYİMİZ GÖRÜŞÜN TARİXLƏRİNİN DƏ RƏMZİ MƏNASI VAR"

İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Məlumdur ki, 18 may 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonunda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. "Laçın rayonunun işğal altına düşməsi hamımız üçün böyük faciə idi,- ilk növbədə, sizin üçün, çünki siz artıq doğma torpaqlarda yaşaya bilmirdiniz,- eyni zamanda, gənc, müstəqil Azərbaycan üçün, - deyə Prezident bildirib: "Çünki Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılmışdır. Laçın rayonu 1992-ci ilin may ayında, Şuşadan 10 gün sonra işğal olunmuşdu. Bizim müstəqilliyimizin bərpasının heç bir yaşı tamam olmamışdı. Mənfur düşmən bizə qarşı artıq açıq təcavüzə keçmişdi. Əfsuslar olsun ki, nə o vaxtkı Azərbaycan rəhbərliyi, nə də rəhbərliyə can atan müxalifət qüvvələri öz məsuliyyətini dərk edə bilməmişlər, bir çox hallarda hər ikisi xəyanət törətmişdir. Laçının ermənilərə təhvil verilməsinin arxasında məkrli siyasi niyyətlər dayanmışdı. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı. Hakimiyyəti istənilən yollarla ələ keçirmək üçün ən çirkin əməllərə də əl atdı, Şuşanı, Laçını demək olar ki, düşmənə təhvil verdi. Görün, bu tarixlərin - yəni, Laçının azad olunmasının və bu gün bizim burada keçirdiyimiz görüşün tarixlərinin də rəmzi mənası var. May ayında Laçın işğal altına düşdü, may ayında laçınlılar Laçına qayıtdılar. Düzdür, 31 ildən sonra, amma biz qayıtmışıq".

### "DEMİŞDİM Kİ, QAYIDACAĞIQ VƏ LAÇINDA DAHA GÖZƏL EVLƏR TİKİLƏCƏK"

Cənab Prezident çıxışında "Bu ay biz Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd etmişik və ilin sonuna qədər tədbirlər davam edəcək" – deyərək qeyd edib ki, məhz Onun Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan ayağa qalxa bildi, Azərbaycan inkişaf yoluna qədəm qoya bildi, vətəndaş müharibəsinə son qoyuldu: "1993-cü ilin oktyabr ayından – o, prezident vəzifəsinə seçiləndən sonra bu günə qədər Azərbaycan sabitlik məkanı kimi, dünyada nümunəvi ölkə kimi özünü təsdiqləyib. O vaxt isə vəziyyət tam fərqli idi. Laçın, Kəlbəcər və Şuşa işğal olunandan sonra təbii ki, erməni silahlı qüvvələri böyük strateji - hərbi üstünlük əldə etmişlər və digər torpaqlarımızı da işğal edə bilmişlər".

Artıq işğaldan sonra digər ərazilərimiz kimi, Laçın da böyük quruculuq meydanına çevrilib. Müharibədən ötən müddət ərzində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək".

**Zümrüd BAYRAMOVA**

# YAP Sədrinin müavini ÇKP-nin Uhan şəhər komitəsinin katibi ilə görüşüb

***Çin Xalq Respublikasında (ÇXR) səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti mayın 31-də Çin Kommunist Partiyası (ÇKP) Uhan şəhər komitəsinin katibi Quo Yuançian ilə görüşüb.***









YAP nümayəndə heyətini salamlayan Quo Yuançian Azərbaycan ilə Çin arasında əməkdaşlığın önəmini vurğulayaraq fəal siyasi dialoq şəraitində iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edib. Azərbaycanın Şərq ilə Qərbi qovuşduran müasir ölkə kimi öz inkişaf modeli ilə fərqləndiyini söyləyən katib Çinin ölkəmizlə münasibətlərin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb. Quo Yuançian Uhanın Azərbaycan şəhərləri ilə əməkdaşlığının təmin olunmasının, xüsusilə də mədəniyyət və turizm sahələrində səmərəli işbirliyinin formalaşdırılmasının önəmli olduğunu deyib. O, ÇKP ilə YAP arasında təmasların sıxlaşdırılmasının qarşılıqlı maraqlara əsaslandığını bildirib.

Qonaqpərvərliyə görə nümayəndə heyəti adından minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Çinin bir-birinin maraqlarına hörmət edən dost ölkələr olduğunu söyləyib. YAP Sədrinin müavini bildirib ki, iki ölkə arasında bir çox sahədə səmərəli əməkdaşlıq əlaqələri formalaşdırılıb. Tahir Budaqov Azərbaycan və Çinin iqtisadi əlaqələrində istifadə olunmamış böyük potensialin olduğunu bildirib. O, xüsusilə nəqliyyat-logistika sahəsində işbirliyinin dərinləşdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb. Azərbaycanın Çinlə "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd edən YAP Mərkəzi Aparatının rəhbəri Prezident İlham Əliyevin təşəbbüsü olan Zəngəzur dəhlizi layihəsinin gerçəkləşməsi nəticəsində bir çox dövlətlərin mənafeyinə xidmət edən yeni qlobal işbirliyi platformasının formalaşacağını bildirib.

Azərbaycanın regionlarının dinamik inkişafa və geniş potensiala malik olduğunu qeyd edən YAP Sədrinin müavini ölkəmizin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olduğunu, mədəniyyət, turizm, ticarət sahələrində faydalı və perspektivli layihələrin reallaşdırıldığını bildirib.

Bu gün yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Çin münasibətlərində partiyalararası əlaqələrin mühüm rol oynadığını diqqətə çatdıran Tahir Budaqov qarşılıqlı səfərlərin həm təcrübə mübadiləsi, həm də sistemli əməkdaşlıq üçün önəmli olduğunu vurğulayıb.

Daha sonra partiyalar arasında əməkdaşlığın perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim edilib. Həmin gün nümayəndə heyyətinin Uhan şəhəri ilə tanışlığı olub. Məlumat verilib ki, Hubey vilayətinin və Mərkəzi Çinin ən böyük şəhəri olan Uhan önəmli nəqliyyat-ticarət, iqtisadi, texnoloji, maliyyə, mədəni, elm və təhsil mərkəzlərindəndir. Bundan başqa, Donhu Milli Parkı ilə tanışlıq zamanı ziyarətçilərə ətraf mühitin qorunması istiqamətində yeni texnologiyalar tətbiq etməklə görülən işlər, həyata keçirilən layihələr barədə geniş məlumat verilib.

# YAP nümayəndə heyəti rəsmi ziyafətdə iştirak edib

***Mayın 30-da Çin Xalq Respublikasının Uhan şəhərində "Hubey əyalətində Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının praktik nailiyyətləri" mövzusunda keçirilən təqdimat mərasiminin iştirakçılarının şərəfinə rəsmi ziyafət verilib.***







Qonaqları salamlayan Çin Kommunist Partiyası Hubey Əyalət Komitəsi katibinin müavini, Hubey Əyaləti Xalq Hökumətinin qubernatoru Van Conlin Uhanın ev sahibliyi etdiyi tədbirin əhəmiyyətindən bəhs edib. O, postpandemiya dövründə daha sağlam bəşəriyyət və xoşbəxt gələcək naminə səylərin birləşdirilməsinin önəmli olduğunu bildirib.

Çin səciyyəli sosializm ideyası əsasında Hubeyin regional inkişaf nümunəsi yaratdığını söyləyən Van Conlin qazanılan təcrübənin dost ölkələrlə bölüşdürülməsinin və qarşılıqlı fikir mübadiləsi aparılmasının faydalı təşəbbüs olduğunu bildirərək tədbir iştirakçılarına minnətdarlıq ifadə edib.

Mərasimdə 30 ölkəni təmsil edən 170-dən çox nümayəndənin adından çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov belə bir mötəbər tədbirə dəvətə və yüksək qonaqpərvərliyə görə YAP nümayəndə heyəti adından təşəkkürünü bildirib. O, bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan müasir sosializm ideyasının Çin xalqının mənafeyinə xidmət etdiyini, Çin dövlətinin inkişafı üçün yeni imkanlar və perspektivlər yaratdığını söyləyib. Tahir Budaqov Hubey Əyalətinin sürətli inkişafının yeni dövr Çin xüsusiyyətli sosializm ideyasının uğurla həyata keçirilməsinin bariz nümunəsi olduğunu qeyd edib: "Bugünkü tədbir də cənab Si Cinpinin yeni dövr üçün müəyyən etdiyi Çin xüsusiyyətli sosializm quruculuğu istiqamətində əldə olunan nailiyyətlərin və mövcud reallıqların təqdimatı, gələcəyə baxış kontekstində yeni yanaşmaların ortaya qoyulması, yeni hədəflərin müəyyənləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir".

Tahir Budaqov Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çin Xalq Respublikasına səfərinin önəmindən bəhs edib, keçirilən görüşlərin faydalı və məhsuldar olduğunu diqqətə çatdırıb. "Səfər çərçivəsində istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsi apardıq" ,- deyən YAP Sədrinin müavini Azərbaycan ilə Çin arasında müxtəlif sahələri əhatə edən səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğunu deyib, 44 günlük Vətən müharibəsində qələbə qazanaraq yeni geostrateji reallıqlar yaradan ölkəmizin regionda çoxşaxəli işbirliyinə və inkişafa xidmət edən təşəbbüslərindən bəhs edib, Zəngəzur dəhlizinin bütövlükdə Avrasiya üçün geostrateji əhəmiyyətini diqqətə çatdırıb.

YAP Mərkəzi Aparatının rəhbəri Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əməkdaşlıq əlaqələrinin ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfələr verdiyini bildirib. Çin xüsusiyyətli sosializm ideyası əsasında görülən işlərin ölkənin qüdrətini daha da artıracağına inamını ifadə edən Tahir Budaqov Çin xalqına rifah, firavanlıq və əmin-amanlıq arzulayıb.

# Çində səfərdə olan YAP nümayəndə heyəti təqdimat mərasimində iştirak edib







Mayın 30-da Çin Xalq Respublikasının (ÇXR) Hubey əyalətinin Uhan şəhərində Çin Kommunist Partiyasının (ÇKP) Beynəlxalq əlaqələr şöbəsinin və ÇKP-nin Hubey Əyalət Komitəsinin birgə təşkilatçılığı ilə "Hubey əyalətində Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının praktik nailiyyətləri" mövzusunda təqdimat mərasimi keçirilib. Çin Xalq Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti mərasimdə iştirak edib.

30 ölkədən 170-dən çox nümayəndənin qatıldığı təqdimat mərasimində ÇKP-nin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Liu Ciencao, Çin Kommunist Partiyası Hubey Əyalət Komitəsinin katibi, Hubey Əyalət Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Van Menhuyi və başqaları çıxış ediblər.

Çıxışlarda Çin Xalq Respublikasının inkişaf yolundan - qazandığı nailiyyətlərdən və qarşıda duran hədəflərdən ətraflı bəhs edilib. ÇXR-in Sədri, ÇKP-nin baş katibi Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının mahiyyəti və praktiki əhəmiyyəti barədə geniş məlumat verilib. Bununla yanaşı, tədbirdə Çin modernizasiyasının səciyyəvi xüsusiyyətlərindən danışılıb. Qeyd edilib ki, Çin modernləşməsi yeni inkişaf modelidir və xalqların xoşbəxt gələcəyinə hesablanıb. Modernləşmə sivil inkişaf yoludur, ona görə də müasir dövrdə beynəlxalq münasibətlər sistemində hegemonluq və diktə siyasəti qəbuledilməzdir.

Çıxışlarda, həmçinin Hubey əyalətinin sosial-iqtisadi göstəricilərinə nəzər salınıb, yerli resurslardan və yeni texnologiyalardan istifadə etməklə, səmərəli investisiya siyasəti həyata keçirməklə davamlı inkişafın təmin edildiyi qeyd olunub. Bildirilib ki, Hubeyin sürətli yüksəlişi Si Cinpinin Çin səciyyəli sosializm ideyalarının nailiyyəti və real nəticəsidir. Daha sonra Hubey əyalətində müxtəlif sahələrdə gerçəkləşdirilən layihələr barədə videotəqdimat nümayiş olunub. Həmin gün konfrans iştirakçıları Elm və Texnologiya üzrə Huayonq Universitetində olublar. Yüksək texnologiyalar sərgisinə baxış keçirən ziyarətçilər sənayenin müxtəlif sahələrində tətbiq edilən innovasiyalar barədə məlumatlandırılıblar.

# Moskvada Paşinyana verilən DƏRS



Avrasiya İqtisadi Birliyinin Moskvada keçirilən sammitində Nikol Paşinyan artıq ənənə halına saldığı absurd ittihamlarını Azərbaycana qarşı səsləndirməklə, beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışsa da, özü çaş-baş vəziyyətə, çox acınacaqlı duruma düşüb və beynəlxalq ictimaiyyət onun rüsvayçı halını izləyib. Erməni baş nazir utanmadan yenə də qondarma "blokada" barədə, guya Qarabağda humanitar böhranın yaranması, eləcə də Azərbaycanın Ermənistana qarşı guya ərazi iddialarının olduğu haqda təxribat xarakterli fikirlər bildirdikdən sonra Azərbaycan Prezidentinin əsaslandırılmış arqumentləri qarşısında boynunu büküb dayanmalı, dinləməli olub və həmişəki kimi gülünc, rüsvayçı vəziyyətdə qalıb, hansı ki, bu ona verilən dərs idi.

Bəli, Azərbaycan Prezidenti cənab İlhan Əliyev bu dəfə də Moskvada erməni baş nazirə dərs verdi. Məhz bu "dərs" bir daha təsdiq etdi ki, Paşinyan idarəetmədən, siyasətdən, beynəlxalq hüquqdan xəbərsizdir və onun nə qədər rüsvayçı bir vəziyyətdə qaldığını bütün dünya ictimaiyyəti izləmiş oldu. Elə Ermənistan cəmiyyətinin də çox böyük ağrı ilə bunu izlədiyi həmin ölkənin mətbuat səhifələrində öz əksini tapır. Sözügedən səmiti, danışıqları izləyən erməni cəmiyyəti də etiraf edir ki, baş nazir elə bil Moskvaya dərs almaq, biabırçı vəziyyətə düşmək üçün getmişdi. Əslində, reallıq budur ki, onsuz da o düşəcəyi gülünc vəziyyətini getməmişdən əvvəl də bilirdi, amma bilə-bilə getməkdə məqsədi, siyasi divident, xal qazanmaq idi, baxmayaraq ki, buna da nail ola bilmədi.

Bilirik ki, Nikol Paşinyan bacarıqsızlıqda, qətiyyətsizlikdə, uğursuzluqda, hətta xəyanətkarlıqda belə erməni cəmiyyəti tərəfindən ölkəsi daxilində də ittiham olunur. Əlalxüsus, Ermənistan müxalifəti onu satqın kimi cəmiyyətə təqdim edir və buna ictimaiyyəti də inandırmağa çalışır. Nikol isə bu ittihamlardan yaxasını qurtarmaq üçün hər şeyə, hətta sonuncu dəfə qəbul etməli olduğu rüsvayçılığa belə əvvəlcədə razı idi. Elə buna görə də Azərbaycanı ittiham etmək üçün ağlına gələn ifadəni, gülünc, absurd iddiaları səsləndirməkdən də çəkinməməsi anlaşılandır. Daha dəqiq desək, Paşinyan özünü guya xalqı üçün cəfakeş kimi göstərmək istəyirdi. Onsuz da onun bütün addımları daxili auditoriyaya hesablanmış olub və bu dəfə də belə idi, amma nəticədə çox axmaq bir duruma düşdüyünü gördü. Bu durum isə elə daxili auditoriyada da müzakirə mövzusuna çevrildi və elə erməni cəmiyyətində də onun barəsində kifayət qədər aşağılayıcı ifadələr səsləndirildi. Başqa cür ola da bilməzdi, çünki axı Vovayeviç öz absurd fikirləri, uydurma iddiaları, ələlxüsus da siyasi savadsızlığı, hüquqi baxımdan məlumatsızlığı ilə bu dəfə də özü-özünü gülünc vəziyyətə saldı.

Zəngəzur dəhlizinin yaradılması təşəbbüsü ilə bağlı Azərbaycan Prezidentinin açıqlamasını erməni baş nazir "ərazi iddiaları" kimi təqdim etməyə çalışıb. "Söhbət yalnız bir dəhlizdən, Laçın dəhlizindən gedir", deyən Paşinyan bunu hələ 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatın pozulması hesab etdiyini də utanmadan dilə gətirib. Zəngəzur dəhlizinin ərazi iddiası olmadığını və nəqliyyat kommunikasiyası olduğunu bildirən Azərbaycan Prezidenti, sözün əsl mənasında erməni baş nazirə, küçə nümayişlərindən istifadə edib hakimiyyəti ələ keçirən səriştəsiz, siyasi və hüquqi baxımdan savadsız olan Paşinyana bu dəfə də dərs verib. "Zəngəzur dəhlizinə gəlincə, mənim çıxışıma diqqətlə qulaq assanız, orada "Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasının təşəbbüskarı olduğu" öz əksini tapır. Düzgün, qanuni, ağlabatan hesab etdiyimiz və yeri gəlmişkən, Rusiya Federasiyası və Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi prosesində iştirak edən digər tərəflər tərəfindən dəstəklənən istənilən təşəbbüsü irəli sürmək bizim haqqımızdır", deyə Azərbaycan Prezidenti Ermənistanın baş nazirinin ittihamlarının əsassız və puç olduğunu isbat edib, verdiyi dərslə onu çox gülünc, rüsvayçı bir duruma salıb.

Bunun ardınca erməni baş nazir qondardığı həmin o dırnaqarası "blokada" məsələsi ilə bağlı da susdurulub. Laçında sərhəd-keçid məntəqəsi yaradılsa da, erməni millətindən olan istənilən Azərbaycan vətəndaşının ondan təhlükəsiz şəkildə istifadə edə bildiyi barədə obyektiv arqumentlərlə çıxış edən ölkə rəhbərimiz bu məsələdə də Nikolu arzulamadığı vəziyyətdə qoyub, çünki o dalana dirənmiş hala düşüb. Paşinyan bu dəfə də əmin olub ki, Azərbaycan Prezidenti ilə debata tab gətirə bilən deyil və əslində, özü-özünü küncə sıxışdırıb. "Yalnız Laçın dəhlizi var, o da olmalıdır və Rusiya sülhməramlıları tərəfindən idarə olunmalıdır", deyən erməni baş nazirin mızıldanmaqdan başqa çarəsinin qalmadığı izləyicilərin diqqətindən yayınmayıb. Təsadüfi deyil ki, bu məqam elə erməni cəmiyyətinin də diqqətini cəlb edib və buna görə çox xəcalət çəkdikləri onlar tərəfindən indi açıq şəkildə etiraf da edilir. "Mənim sözlərimdə ərazi iddialarını görmək üçün çox cəhd etmək və şiddətli təxəyyül sahibi olmaq lazımdır", deyən cənab İlham Əliyevin bu sözlərini erməni cəmiyyəti çox yaxşı başa düşüb və bununla öz baş nazirlərinin hansı duruma, rüsvayçı vəziyyətə düşdüyünü etiraf etməkdən başqa həmin cəmiyyətin çarəsi də qala bilməzdi axı. Çünki ona verilən dərs göz önündə baş verib və bunu görməməzliyə vurmaq mümkün də deyil.

Zəngəzur dəhlizinin məhz Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına gedən yol olduğunu, bu yolun isə Ermənistandan keçməli olduğunu, bunun heç bir halda hansısa dövlətin ərazisinə təcavüz olmadığını bildirən ölkə rəhbərimizin, dəhliz sözünün də hamı tərəfindən qəbul edilmiş beynəlxalq termin olduğunu diqqətə çatdırması, məhz elə "dəhliz" sözündən hiyləgərcəsinə istifadə etməyə çalışan Paşinyana verilən növbəti bir dərs sayılır. Bu "dərs" özü də onun çox rüsvayçı vəziyyətdə olduğunu, beynəlxalq terminlərdən xəbərsiz olduğunu, ümumiyyətlə siyasi savadsızlığını, oturduğu hakimiyyət kürsüsünə layiq olmadığını təsdiqləyir. Elə erməni cəmiyyətində Paşinyanın ünvanına səsləndirilən fikirlər, onun Moskva görüşündə rüsvayçı vəziyyətə düşdüyü barədə ifadələr də bu durumundan qaynaqlanır, çünki ermənilər özləri də baş nazirlərinin halını yaxşıca müşahidə ediblər. Danışıqların Moskva raundunun nəticələri bir daha təsdiq etdi ki, erməni tərəfi, ələlxüsus da erməni baş nazir Nikol Paşinyan hələlik Azərbaycanla münasibətlərin normallaşmasının bütün təfərrüatları barədə dəqiq təsəvvürə belə malik deyil və bunun da bir neçə səbəbi var. Əvvəla, Ermənistanın baş naziri heç də ixtiyar sahibi kimi görünmür və hansısa qüvvələrin qarşısında hesabatlı bir vəziyyətdə, yəni asılı durumda, səlahiyyətsiz, gülünc halda olduğu dərhal duyulur və hansısa qərar verməkdə qorxduğu da açıq-aşkar hiss olunur. Onsuz da öz cəmiyyətində məhz bacarıqsızlıqda, uğursuzluqda, hətta xəyanətkarlıqda ittiham olunan bu baş nazirin, guya dirəniş göstərdiyini, guya ölkəsinin milli maraqları xatirinə mübarizə apardığını göstərmək, bununla da təmsil etdiyi cəmiyyətin "damğalarından" yaxa qurtarmaq istəyi və niyyəti göz önündədir. O, indi yalnız özünü məhz düşdüyü vəziyyətdən xilas etməyə daha çox can atır, nəinki xalqını, dövlətini. Elə buna görə də bir-birinin ardınca daha rüsvayçı vəziyyətə düşür. Digər tərəfdən də axı Qərbin dəstəyi və layihəsi ilə hakimiyyət kürsüsünü qamarlayan beli çantalı küçə nümayişçisinin siyasi savadı və təfəkkürü yoxdur ki, danışıqları lazım olan dürüst bir məcrada apara bilsin. Çox güman ki, danışıqların yekunlaşmasının qarşısını almaq üçün danışıqları uzatmağa da meyilli olması, yaxud uzatması bu səbəbdəndir. Onun sülh sazişi barədə təsəvvürə belə malik olması artıq təkcə bizdə deyil, bütövlükdə dünya ictimaiyyətində şübhə doğurmaya bilməz. Çünki Paşinyanın hansı dırnaqarası "savad", hansı "təfəkkür" sahibi olduğu elə Moskvada bir daha göründü. Daha doğrusu, Azərbaycan Prezidenti bir neçə kəlmə ilə bunu bütün dünyaya göstərdi və belə bir hal erməni baş nazirin elə rüsvayçı vəziyyəti kimi bütün dünyada artıq qəbul olunur.

***İnam Hacıyev***



# Balkan kartı masada

## *Serb-Kosovo münaqişəsi yenidən "qaynar" fazaya keçib*



***Ukraynada müharibə 462-ci gününü geridə qoyduğu bir vaxtda Avropanın mərkəzində onsuz da kövrək olan sülh yerini qarşıdurmaya, münaqişəyə və proqnozlaşdırılan geniş müharibəyə verib. Yuqoslaviyanın parçalanmasından sonra yerində yaranan dövlətlərin sayı artmaqdadır. Keçmiş federal dövlətin parçalanması təkcə serblər üçün ağrıdıcı olmadı, həm də yeni dövlətlər bunu öz aralarında gedən silahlı qarşıdurmalar dövründə də geniş anlamda hiss etdilər. Bu gün Qərbin "yardımı" ilə Serbiyanın da parçalanması planı artıq işə düşüb. Eynilə Rusiyanın başına açılan oyunlar kimi.***




Qərb Rusiyanı parçalamaqda qərarlı olduğu kimi Serbiyanın da taleyinə bir "fatihə" oxumaqdadır. Serbiyanın Kosovo "kray"ında NATO-nun sülhməramlıları xudmət aparsa da serblərlə kosovalıların toqquşmalarının qarşısını ala bilmirlər. Artıq 3 gündür ki, Kosovonun şimalında yerli serblərlə NATO qüvvələri arasında hələlik əlbəyaxa döyüşlər gedir və silahların odlanacağı günə çox az vaxt qalıb.

**Serbiya prezidenti Aleksandar Vucic** bildirib ki, Kosovo və Metoxiyadakı vəziyyət "təxribatçı bəyanatlar və Albin Kurtinin olduqca məsuliyyətsiz davranışı səbəbindən yeni münaqişəyə səbəb ola bilər". Vuçiç əlavə edib ki, böyük toqquşmalardan qorxuram, çünki Kurti Vladimir Zelenski olmaq arzusundadır və serblər artıq buna dözə bilmirlər.

Serb azlığının kompakt yaşadığı Kosovonun şimalında son günlər vəziyyət gərginləşib. Aprelin sonunda serblərin boykot etdiyi yerli seçkilər keçirilib. Media səsvermədə seçicilərin cəmi üç faizə yaxınının iştirak etdiyini bildirib. Buna baxmayaraq, Priştina bunun "demokratiya" üçün yetərli olduğuna dair qərar verib və albanları bir neçə bələdiyyəyə rəhbərliyə gətirməyə çalışıb. Kosovo polisi əyalətin şimalındakı Leposaviç, Zubin Potok və Zvecan bələdiyyələrinin binalarını gözyaşardıcı qaz və səs-küylü qumbaraatanlardan istifadə edərək zorla zəbt edib. Serb bayraqları endirilib. Yerli serblər müqavimət göstəriblər, toqquşmalar olub.

Kosovoda "asayişi" qorumağa çağırılan NATO kontingenti (KFOR) alovlanan münaqişəyə müdaxilə etməmək yolunu seçib. Vuçiç Qərb ittifaqından "serblərə qarşı zorakılığı dərhal dayandırmağı" tələb edib və NATO-nun Serbiya-Kosovo münaqişəsində həqiqətən kimi dəstəklədiyini bildiyi üçün Serbiya ordusunu ən yüksək döyüş hazırlığına və qabaqcıl qüvvələri Kosovo və Metoxiya ilə sərhədə yerləşdirib. Belə olan halda NATO-nun baş katibi Stoltenberq təşvişini dilə gətirib, və Priştinanı "eskalasiya səviyyəsini azaltmaq, sabitliyi pozan addımlar atmamaq" çağırışını edib. Amma vəziyyət artıq nəzarətdən çıxıb və Avropanın mərkəzində növbəti hərbi münaqişənin başlanması təhlükəsi yenidən reallaşıb.

Vuçiçin Kosovonun baş nazirini Ukrayna prezidenti ilə niyə müqayisə etdiyini anlamağa çalışaq. Onun belə müqayisəyə nə ehtiyacı var? Əvvəla, Vuçiç artıq Kurtini Zelenski ilə müqayisə edib - fevral ayında Priştinanın Aİ-nin vasitəçiliyi ilə Serbiya Bələdiyyələri Birliyinin yaradılması barədə qərara razılıq verməməsi toqquşmalar üçün indikator rolunu oynayıb. Onun sözlərinə görə, Priştina özünü qurban – bir növ "Balkan Zelenski" kimi göstərmək üçün Serbiya ilə NATO arasında qəsdən hərbi münaqişə yaradır.

İndi Belqradın Brüsselin onu Kiyevi Rusiya ilə münaqişəsində dəstəkləməyə məcbur etmək cəhdlərinə necə reaksiya verəcəyi sualı sadəcə olaraq əhəmiyyət kəsb etmir. Prezident Vuçiç üçün Zelenski başqası deyil, pisliyə kömək edən şər obrazıdır. Aİ və NATO-nun anti-Rusiya sisteminə qoşulmaq üçün serblərin qollarını necə burması hamıya məlumdur. Vuçiç "mümkün qədər" Rusiyaya qarşı sanksiyalara qoşulmayacağını bildirib. NATO-nun dəstəklədiyi Kosovo liderinin meydana çıxması, şübhəsiz ki, Serbiya prezidentinə Qərbin heç vaxt öz ölkəsini müdafiə etməyəcəyini, əksinə "qurbanın" – Qərbin yaratdığı "müstəqil Kosovonun" tərəfini tutacağını bir daha təsdiqləyəcək.

### Albin Kurti

Beləliklə, Serbiya-Kosovo münasibətlərinin hazırkı kəskinləşməsi açıq şəkildə sonuncu deyil. Sadəcə, Kurtinin Belqrada qarşı sona qədər təxribatlara gedəcəyi ortadadır. Kosovoda vəziyyətin kəskin şəkildə gərginləşməsi fonunda Serbiya prezidenti Aleksandar Vuçiç xalqa təcili müraciət edib. O, Kosovonun baş nazirini vəziyyəti gərginləşdirməkdə ittiham edib: "Bütün bunları Albin Kurti serblərlə NATO arasında münaqişənin baş verməsini böyük istəyi ilə təşkil edib və baş verənlərə görə yeganə məsul olan odur. Amma Pilat kimi əllərini yuyur və məsələ ilə heç bir əlaqəsinin olmadığını deyir.

Qey edilir ki, dünya birliyi tərəfindən müstəqilliyi qismən tanınan Kosovada yaşayan serblər, eləcə də müstəqil Serbiyanın bir hissəsi olan Metoxiya yerli seçkiləri boykot ediblər. Seçkilərin nəticəsi olaraq kosovalı albanlar bütün mühüm vəzifələri ələ alıblar. Bəzi yaşayış məntəqələrində serb nümayişçilərlə Kosovo polisi arasında toqquşma baş verib, nəticədə NATO-nun (KFOR) himayəsində olan Beynəlxalq Təhlükəsizlik Qüvvələrinin 41 üzvü yaralanıb. Üç mülki şəxs də yaralanıb və onların vəziyyəti ağırdır. Etirazlar zamanı ümumilikdə 52 serb yaralanıb.

Həmçinin Serbiyanın rəhbəri beş Qərb ölkəsinin nümayəndələri ilə görüşüb və onları Kosovo ilə bağlı düşünməyə çağırıb. Aprelin sonunda Serbiyanın Bosniya və Herseqovina Respublikasında keçirilən 6-cı Yahorina İqtisadi Forumunda onun prezidenti Milorad Dodik deyib ki, istənilən nizam-intizam xaosa qalib gələcək, sistemsiz təşəbbüs isə nizama uduzacaq". Görünür, bu, ümumi məlumatdır. Tanınır, lakin həmişə tətbiq edilmir. Aydındır ki, Dodik Balkan regionu ölkələrinin yaxın siyasi və iqtisadi gələcəyini nəzərdə tuturdu ki, bu da ümumavropa qanunvericilik norma və təcrübələrini addım-addım qəbul etmək, Avropa İttifaqı ilə siyasi deyil, qanunvericilik formasında inteqrasiya etməkdir. . Forumda, yeri gəlmişkən, bütün son illər ərzində ekspert statusunda bu sözlərin müəllifi Rusiyanın yeganə nümayəndəsi idi.

Bu hadisədən bir ay keçməmiş, mayın 23-də Milorad Dodik Vladimir Putinlə görüşmək üçün Moskvaya uçdu və Rusiya Federasiyasının prezidentini Serb Respublikası ordeni ilə təltif etdi. Banja Luka-nın indi çox ehtiyacı olduğu xarici ödənişləri ödəmək üçün Rusiya krediti almaq perspektivləri bağlı qapılar arxasında müzakirə edilib. Lakin qərarın icra sürətindən asılı olmayaraq, qeyd etmək lazımdır ki, Moskva hətta əvvəlki illərdə də Serb Respublikası iqtisadiyyatına sərmayə qoymağa tələsmirdi, lakin indi bəlli səbəblərdən bu variant daha da çətinləşib.

Bir neçə həftə əvvəl Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko Serbiyanın RTRS telekanalının jurnalistlərinə belə bir etirafla heyrətə gətirmişdi: "Mən bir rus diplomatı kimi hesab edirəm ki, Balkan regionunda daha çox Rusiya olmalıdır. Çünki tərəflər üçün sabitləşdirici amildir". Yüksək rütbəli diplomatdan belə bir etirafı eşitmək müdafiə nazirinin müavinindən "Xüsusi əməliyyatlarda qalib gəlməli olan Rusiya", İqtisadiyyat nazirinin müavinindən isə "Daha zəngin olmalı olan Rusiya" haqqında açıqlamaya bənzəyir.

Ekspertlər Serbiyanı Kosovo münaqişəsinin bir hissəsi etmək istəyən Qərbin əsas niyyətinin Rusiyanı daha çox münaqişələrə cəlb etməkdir. Ukraynada rus ordusunun hücumlarını zəiflətməyin yegani yolu Rusiyaya birbaşa hücumdan əvvəl onun strateji müttəfiqi olan, bütün zamanlarda dəstəklədiyi ölkələri münaqişələrin episentrinə çevirməkdir. Belə olan halda Rusiya hərbi imkanlarını parçalamaq məcburiyyətində qalacaq ki, bu da daha çox Qərbin işinə yarayacaq.

***V.VƏLİYEV***

ANALIZ

# Kosmik sənayenin inkişafı Azərbaycanın iqtisadi gücünü artırır




***Son illər ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf etməkdədir. Artıq bu sahədəki uğurlu nailiyyətlər insan fəaliyyətinin, sosial-iqtisadi münasibətlərin tərkib hissəsinə çevrilib. Hazırda Azərbaycan internet istifadəçilərinin sıxlığına görə MDB ölkələri arasında birinci yerdədir, Avropa məkanında isə, 8-ci sıradadır. Xüsusilə də, "Elektron hökumət" layihəsinin həyata keçirilməsi İKT sahəsində müsbət dinamika daha cəlbedici olub. Bu layihənin əsas hədəfi sahibkarlara, əhali qruplarına, biznes sektoruna verilən xidmətləri avtomatlaşdırmaq, eləcə də dövlətin özünün müxtəlif prosedurlarını avtomatlaşdırmaqdır.***

Xidmətlərin elektronlaşdırılması Azərbaycanda korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin müsbət nəticələr verməsinə imkanlar yaradır. Hazırkı dövrdə "Elektron hökumət" portalına 45 qurum fiziki olaraq qoşulmuş və Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş 428 elektron xidmətdən 280-i vahid portal (bir pəncərə prinsipi) vasitəsilə əhaliyə təqdim olunur. 270 xidmət Vətəndaşlar üçün Elektron Xidmətlər Portalında, 313 xidmət isə dövlət qulluqçuları üçün Elektron Xidmətlər Portalında yerləşdirilib. Azərbaycan Prezidenti İlham Əliyev kosmik sənaye sektorunun inkişafı sayəsində respublikamızın siyasi-iqtisadi gücünün daha da artacağını vurğulayıb: "Bu il biz birinci Azərbaycan telekommunikasiya peykini orbitə buraxacağıq. Bu, tarixi hadisə olacaqdır. Azərbaycan kosmik sənaye yaradır. Azərbaycan kosmik sənayeyə malik olan ölkələr sırasına daxil edilir. Bu, uzaqgörən siyasətimizin nəticəsidir. Mən hesab edirəm ki, Azərbaycan bütün mütərəqqi və qabaqcıl texnologiyaları gətirməlidir. Biz gətiririk, tətbiq edirik, kadrları hazırlayırıq. Beləliklə, ölkəmizin həm siyasi çəkisi, həm iqtisadi gücü artacaqdır".



## İKT sektoru üzrə investisiya qoyuluşu artmaqdadır

Təhlil

Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiqlənən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı öz əksini tapmışdır. Konsepsiyaya görə, ölkə əhalisinin İKT və rabitə xidmətlərindən istifadə imkanları daha da genişləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində etibarlı təhlükəsizlik sisteminin yaradılması, milli standartların formalaşdırılması və ölkə üzrə tam rəqəmli televiziya yayımının tətbiq olunması nəzərdə tutulmuşdur. Bu gün artıq tam əminliklə, demək olar ki, təsdiqlənən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında planlaşdırılan hədəflərə və məqsədlərə nail olunub. Görülən işlərin məntiqi olaraq artıq ölkə əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir. Əhalinin və turistlərin ictimai yerlərdə internetə daha rahat çıxışını təmin etmək üçün Bakının 20 parkında "İctimai Wi-Fi" istifadəyə verilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 9 ayı ərzində İKT sektoru üzrə investisiya qoyuluşu 69 faiz artaraq 225 milyon manat olub. Sektorun gəlirləri isə 1,1 milyard manatdan 1,2 milyard manata yüksəlib, gəlirlərin artım tempi isə 7,7 faiz təşkil edib. Ölkəmizdə beynəlxalq internet kanallarının ümumi tutumu 820 qeqabitədək artırılıb. Beynəlxalq səs trafikinin etibarlılığını və təhlükəsizliyini təmin etmək məqsədilə cari ildən etibarən Beynəlxalq Telefon Stansiyasının üç ehtiyat sistemi istismara verilib.

Avropa və Amerika mütəxəssislərinin birgə səyləri ilə hazırlanan və Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti olaraq tarixə düşdü. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi idi. İstismar müddəti 15 il olan "Azərspase-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Azərbaycan Prezidenti İlham Əliyev bu peykin fəaliyyətinin iqtisadi cəhətdən də səmərəli olacağını vurğulamışdır: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin". Artıq uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan, ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb.

Bu gün Azərbaycan orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biridir və kosmik sənayenin inkişafı üçün çox gözəl imkanlar mövcuddur. Qafqazın ilk peyk operatoru olan "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2017-ci ildə ikinci telekommunikasiya (sayca üçüncü) və 2018-ci ildə çox yüksək ayırdetməyə malik olan ikinci müşahidə peykinin (sayca 4-cü) orbitə çıxarıldı. Ekspertlərin qənaətinə görə, 2023-cü ildə Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə regional kosmik sənaye mərkəzinə çevriləcək. Bu istiqamətdə Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı artır və daha da dərinləşir. Azərbaycan dünyanın sayı o qədər də çox olmayan kosmik klubuna da üzv olub. Bütün bunlar Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin göstəricisidir. Azərbaycan gələcəyə doğru inamla addımlayır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var. Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun".

"Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır. "Azərspace -1" peykin orbitə çıxarılmasının ardınca 2018-ci il sentyabrın 26-da Fransanın Qvianasında yerləşən Kuru kosmodromundan Azərbaycanın "Azerspace-2" peyki orbitə buraxıldı. Prezident İlham Əliyev "Azərspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqa təbrikində demişdir: "Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək".

## İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək

Yerli və xarici mütəxəssislər o fikirdədirlər ki, 2023-cü ildə kosmik sənayenin inkişafı üçün çox gözəl imkanları olan Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək. Bu istiqamətdə Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı artır və daha da dərinləşir. Bütün bunlar Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi "Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun". "Azerspace-2" peykin orbitə çıxarılması ölkəmizin iqtisadi gücünə güc qatacaq. Çünki, "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək və Azərbaycana 400 milyon dollar gəlir gətirəcək. Nəzərə almaq lazımdır ki, 2013-cü il fevralın 8-də orbitə çıxarılan "Azərspace-1" telekomunikasiya peyki 15 illik istisamar müddəti ərzində ölkəmizin iqtisadiyyatına 220 milyon ABŞ dolları gəlir gətirəcək."Azersky" müşahidə peyki isə, ümumilikdə ölkəmizə 200 milyon avro gəlir gətirəcəyi proqnozlaşdırılır.

Bir sözlə, kosmik sənayenin inkişafı Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artmasına təkan olub. Bu isə, aparılan siyasətin düzgün və əsaslı olduğunu göstərir. Nəticələr ürəkaçan olduğundan onu qeyd etmək olar ki, Azərbaycan xalqının və dövlətinin sabahı bu günü kimi parlaq və çox uğurlu olacaq.

**İ.ƏLİYEV**

# 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür





*Uşaqlar bizimi sabahımız, gələcəyimizdir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Əlbəttə ki, hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Sağlam cəmiyyətdə gələcəyimizin sağlam övladları böyüyür və tərbiyə alır.Bu gün bütün dünya Uşaqların Beynəlxalq Müdafiəsi Gününü qeyd edir. Bunun yarım əsrdən artıq tarixi var. 1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib.*




Elə həmin tədbirdə də, 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərara alınıb. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. BMT-də Uşaq Hüquqlarına dair Konvensiya qəbul edilib və Uşaq Hüquqları Konvensiyası - BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq, dünyanın hər bir yerində yaşayan uşaqların Konvensiya ilə müəyyən edilmiş hüquqlarını təmin edir.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da bu gün qeyd edilir. Bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Ölkəmizdə müasir uşaqların problemlərinin həlli, onların hüquqlarının qorunması kimi məsələlərin zəruriliyini nəzərə alaraq, əlverişli mənəvi və sosial mühitin yaranması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Uşaqların qayğısına qalaraq intellekti yüksək olan, savadlı nəslin yetişməsinə Konvensiyanın iki əlavə protokoluna qoşulub. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il avqustun 24-də "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun təsdiqi ilə bağlı imzaladığı Fərmanı uşaqların hüquq bərabərliyi, vicdan, söz və məlumat azadlığı, yaşamaq və inkişaf etmək, tərbiyə almaq, şərəf və ləyaqətinin müdafiəsi hüquqlarının təmin olunmasında böyük əhəmiyyətə malikdir. Bu tələb olunan şəraitin yaradılmasına önəm verilir.

## UĞURLU DÖVLƏT PROQRAMLARI VƏ LAYİHƏLƏR

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə, Azərbaycan müstəqillik dövründə, uşaq hüquqlarının qorunması və cəmiyyətimizin bu sahədə maarifləndirilməsi sahəsində çoxsaylı layihə və proqramlar həyata keçirib. 2002-ci ildə Azərbaycan qeyd olunan sənəd cəmiyyətdə uşaqların müdafiəsinə və onların inkişafına xüsusi təkan oldu.

Ulu Öndər Heydər Əliyevin ideyaları əsas götürülərək, müasir dövrdə uşaq və gənclərin vətəndaşlıq, vətənpərvərlik və mənəvi-əxlaqi tərbiyə sisteminin hüquqi əsası formalaşdırılmış və normativ mənbə kimi bir sıra proqramlar qəbul edilmişdir. Uşaq siyasətinə xüsusi diqqət yetirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu sahədə bir sıra uğurlu dövlət proqramları və layihələr reallaşır. Uşaq siyasəti ilə bağlı Prezident İlham Əliyevin Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilib. Qaydalar uşaq sahəsində nəzarətin gücləndirilməsi, müvafiq dövlət orqanlarının uşaq sahəsində fəaliyyətinin əlaqələndirilməsi baxımından, xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısının Sərəncamına əsasən, "Azərbaycan Respublikasında dövlət-uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)" ölkəmizdə uşaqlara dövlət səviyyəsində göstərilən diqqətin daha bir nümunəsi idi.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti" Azərbaycan Respublikası Ailə Məcəlləsinin 51.7-ci maddəsinə uyğun olaraq, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin təşkilini və həyata keçirilməsini tənzimləmiş oldu. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması idi. Eyni zamanda, uşaq hüquqlarının pozulmasına səbəb olan halların qarşısının alınmasında əhəmiyyətli bir sənəddir.

## "HƏR UŞAĞIN AİLƏYƏ EHTİYACI VAR"

Bu gün Ulu Öndər Heydər Əliyevin ideyalarını əməli fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də genişmiqyaslı tədbirlər həyata keçirilir. Belə ki, fond xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan uşaqlara diqqət və qayğı ilə yanaşır. Fondun prezidenti Mehriban xanım Əliyevanın "Hər uşağın ailəyə ehtiyacı var" layihəsi uşaqların ailə mühitində tərbiyə almasında əhəmiyyətlidir. Mehriban xanım Əliyeva deyirdi: "Biz çalışırıq ki, bu uşaqlarla daim ünsiyyət quraq, onların problemləri ilə maraqlanaq, onlara diqqət və məhəbbət göstərək. Mən çox şadam ki, fondun bu təşəbbüsü bu gün həm təşkilatlar tərəfindən, həm də ayrı-ayrı insanlar tərəfindən çox geniş şəkildə dəstəklənir. Bu gün Azərbaycanda ən yüksək standartlara cavab verən uşaq evləri və internat məktəbləri fəaliyyət göstərir. Burada yüksək peşəkarlığa malik insanlar çalışır. Amma həqiqət ondan ibarətdir ki, ən yaxşı uşaq evi, ən müasir internat məktəbi ailə mühitini, ailə tərbiyəsini, valideyn məhəbbətini əvəz edə bilməz". Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlərin keçirilməsinə təkan verir. Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Kor və zəif görən insanların İKT-yə çıxışının təmin edilməsi" layihələri, məhz uşaqların fiziki və mənəvi sağlamlığı, yetkin bir şəkildə formalaşması istiqamətində həyata keçirilir. Fond tərəfindən "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində aparılan əsaslı təmir və yenidənqurma işləri cəmiyyətdə əks-səda yaradıb.

## BU GÜNÜN UŞAQLARI SABAHIN APARICI QÜVVƏLƏRİDİR

Bu gün uşaq və gənclərin mənəvi və əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üçün bütün tədbirlər həyata keçirilir. Bundan başqa, onlarda milli mədəniyyətimizə maraq, ümumbəşəri və milli dəyərlərin mənimsənilməsinə olan tələbat, bədii zövq və incəsənətə meyil, cəmiyyət həyatında iştirakın formalaşmasına hərtərəfli yardım göstərilir. Təhsil müəssisələrində uşaq və gənclərin istirahəti və asudə vaxtlarının təşkilinə diqqət artırılmışdır. Peşə seçimi, iqtisadi və əmək tərbiyəsi onlarda bir sıra amillərin formalaşmasına səbəb olmuşdur. Sosial və iqtisadi mədəniyyət, əməyin şəxsi və ictimai əhəmiyyətinin dərk edilməsi, uşağın bu prosesdə iştirakı və şəraitə uyğunlaşmaq bacarığı, yaradıcı praktik düşüncə, təhsil və peşəkarlıq dəyərlərinə maraq və s. problemlərin uğurlu həlli bütün cəmiyyətin həyat fəaliyyəti və onların sonrakı mütərəqqi inkişafından asılıdır.

Bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan gələcəyin qurucusu olacaq uşaqların sabahı üçün böyük tədbirlər görür və dünyanın işıqlı sabahını təmin edir. Bugünün uşaqları sabahın əsgərləri, müstəqil dövlətimizin aparıcı qüvvələridir.

**ZÜMRÜD BAYRAMOVA**

TƏHLİL

# Səbaildə "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib



***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 31-də Beynəlxalq Muğam Mərkəzində YAP Səbail rayon təşkilatı tərəfindən tədbir keçirilib.***

Əvvəlcə rayon ərazisində yerləşən Heydər Əliyev parkında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Sonra Səbail rayonunda yerləşən "Şəhidlər" abidə kompleksi ziyarət edilib. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirib ki, Heydər Əliyev dünyada az rast gəlinən elə nadir dövlət xadimlərindən və şəxsiyyətlərdəndir ki, fəaliyyətinin bütün istiqamətlərində milli-mənəvi dəyərlərimiz başlıca prinsip olub. Ümummilli Lider cəmiyyətin inkişaf dinamikasında ənənə və müasirliyi, milli irsə böyük ehtiramı başlıca hərəkətverici qüvvə hesab edib, azərbaycançılığı milli ideya və milli varlığımız üçün əsas ideoloji generasiya mənbəyi kimi qəbul edib.





Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib ki, ümummilli lider Heydər Əliyev hər zaman öz doğma xalqına güvənib və xalqının, dövlətinin inkişafı üçün yorulmaz fəaliyyət göstərib: "Xalqının tələbini geri çevirməyən ulu öndər Heydər Əliyev ən çətin anda ölkəmizə rəhbərlik etmək məsuliyyətini qəbul etdi. Çünki Ulu Öndəri xalqının taleyi, gələcəyi, qayğıları maraqlandırırdı. Heydər Əliyev doğma xalqının tarixinə öz adını qızıl hərflərlə yazan böyük xilaskar, bütün bir xalqı öz ətrafında birləşdirən və gələcəyə aparan öndər idi".

Səbail rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov söyləyib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsindən sonra müasir Azərbaycan tarixinin şanlı səhifələri yazılmağa başladı. Ümummilli Liderin dövlətimiz və xalqımız üçün göstərdiyi müstəsna xidmətlər Azərbaycanın dünyada söz və nüfuz sahibi olan ölkəyə çevrilməsində mühüm rol oynadı.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxış edərək vurğulayıb ki, 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli Lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrildi. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq.

YAP Səbail rayon təşkilatı "Parlament prospekti 1" ərazi partiya təşkilatının sədri Adil Vəliyev çıxışında qeyd edib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki hakimiyyət dönəmlərində ölkəmiz ancaq yeni uğurlar və irəliləyişlər əldə edib. Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, partiya sıralarına yeni qoşulan gənclərə isə üzvlük vəsiqələri təqdim edilib. Tədbir bədii hissə ilə başa çatıb.



# Müstəqil Azərbaycanın banisi, xalqımızın xilaskarı

## *Şəmkirdə "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 31-də Şəmkir rayon Heydər Əliyev Mərkəzində YAP Şəmkir rayon təşkilatı tərəfindən tədbir keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Sonra rayon Şəhidlər xiyabanı ziyarət olunub, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə tər güllər düzülüb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev bildirib ki, ömrünü dövlətimizin və xalqımızın nicatı və xoşbəxt gələcəyinin qurulmasına həsr etmiş Ulu Öndər öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirərək xalqımızın taleyində silinməz izlər qoyub. Müasir Azərbaycan tarixinin dövlətçilik salnaməsini qızıl hərflərlə yazan Ulu Öndər hər bir azərbaycanlının qəlbində yaşayır və xalqımız var olduqca, hər zaman ürəklərdə əbədi yaşayacaq.

Tədbirdə çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev deyib ki, bütün mənalı ömrünü şərəf və ləyaqətlə yaşamış, Vətəninə, xalqına sədaqətlə xidmət etmiş ulu öndər Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən şəxsiyyətdir. Bu gün qalib və qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edir, möhtəşəm uğurlar qazanır.

YAP İdarə Heyətinin üzvü, Elm və Təhsil Nazirliyi akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru, kimya elmləri doktoru Əfsun Sucayev çıxış edərək vurğulayıb ki, müasir müstəqil Azərbaycan Ümummilli Liderin şah əsəridir. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri heç vaxt unudulmayacaq.

YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov söyləyib ki, müasir Azərbaycan Heydər Əliyevin xalqımıza tarixi mirasıdır. Ulu Öndər müstəqil Azərbaycanın banisi, xalqımızın xilaskarıdır. Ümummilli lider Heydər Əliyevin fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik daim özünü göstərib. O, Azərbaycanın müstəqilliyini təmin etmək və ölkəmizi tərəqqi yoluna çıxarmaq kimi ağır və məsuliyyətli işin öhdəsindən müdrik siyasəti ilə gəlib.

Şəmkir rayon Düyərli kənd ərazi partiya təşkilatının sədri Aybəniz Nəsibova çıxışında diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik ənənələrini qoruyan görkəmli dövlət xadimi, fenomenal şəxsiyyətdir. Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisi olaraq adını tarixə qızıl hərflərlə yazdırıb. Daha sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, partiya sıralarına yeni qoşulan şəxslərə isə üzvlük vəsiqələri təqdim edilib. Tədbir konsert proqramı ilə başa çatıb.




# Bu ölkə dünya xəritəsindən silinəcək, əgər...

## *Rusiya Federasiyasının dövlət müşavirindən maraqlı proqnozlar*

Ermənistanda cərəyan edən məlum siyasi situasiya və bu fonda baş verən hadisələr həmin ölkənin KTMT-də və Avrasiya İqtisadi İttifaqında müttəfiqi olan Rusiyanın diqqəti mərkəzində saxlanılmaqda davam edir. Artıq bir sıra Rusiya politoloqları və konfliktoloqları Ermənistandakı vəziyyətin çərçivədən çıxdığını bildirir, o cümlədən, davam edəcəyi halda ölkənin məhv olması ehtimallarının artacağını da istisna etmirlər. Xüsusilə, Paşinyanın "məşhur" - "Ermənistan KTMT-ni tərk etmir, KTMT Ermənistanı tərk edir" tipli pafoslu bəyanatından sonra.

Bu arada, mövzu ilə bağlı mətbuata müsahibə verən nüfuzlu Rusiya politoloqu, Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri, siyasi elmlər doktoru, "Şərq vektoru" - Konsaltinq mərkəzinin direktoru Tatyana Poloskovanın sözlərinə görə, Ermənistan müxalifətinin Nikol Paşinyanın Azərbaycanla sülh müqaviləsi imzalaması məqsədinə qarşı çıxması və onun istefasını tələb etməsi ölkəni sürətlə siyasi məhvə doğru sürükləməkdədir.

Sözügedən müsahibədəki diqqətçəkən məqam sülh müqaviləsinin imzalaması prosesində Rusiya ilə Avropanın vasitəçilikləri ilə bağlıdır. Bununla bağlı fikirlərini bildirən Tatyana Poloskova Ermənistan rəsmilərinin Ermənistan-Azərbaycan arasındakı dialoq perspektivinə "optimizm" ruhunda yanaşması ilə bağlı bəyanatlarını xatırladıb və ona da eyham vurub ki, buna baxmayaraq, erməni hökumətinin özündə də fikir ayrılıqları mövcuddur: "Bu günlərdə Ermənistan Azərbaycanı "müharibə ritorikasında" ittiham edib. Ermənistan rəhbərliyində və bu ölkənin siyasi isteblişmentində Qarabağın Azərbaycana təhvil verilməsini bir çoxları qəbul etmir. İctimai rəyə gəldikdə isə, bizim gözlərimizin önündə kütləvi etiraz fəaliyyətləri baş verir və bütün bunlar yalnız Ermənistanın paytaxtında deyil, eləcə də kənd yerlərində yaşanır. Əgər Azərbaycanla Ermənistanın rəhbərlikləri səviyyəsində ikitərəfli münasibətlər baxımından həlledici məsələlərdə qarşılıqlı anlaşmalar varsa, vətəndaş cəmiyyətində sərt ritorika yaşanmaqda davam edir. Lakin münasibətlərin normallaşması istiqamətindəki prosesə yalnız elitanın deyil, həm də hər iki ölkənin xalq kütləsinin cəlb etməməsi real nəticələrin əldə olunmasında çətinliklər yaradır".

### "Erməni cəmiyyəti bundan sonra da həmin yolla getməyə davam etsə, bu ölkə dünya xəritəsindən silinəcək"

Poloskova əlavə edib ki, vasitəçilik missiyaları əsas faktordur. Ancaq Ukraynada yaşanan hərbi əməliyyatlardan doğan iqtisadi və humanitar böhran dünyanı iki hissəyə parçalayıb, həmçinin, Rusiyaya qarşı ağır sanksiyaların tətbiqinə yol açıb. Cənubi Qafqaz mövzusu isə ikinci plana keçid alıb. "Hətta "vasitəçi Rusiya" ifadəsi, eləcə də sülhməramlıların Qarabağ regionunda mövcudluğu dünyada bir çoxlarında sarkazm gülüşü yaradır", deyə Rusiyanın siyasi elmlər doktoru etiraf edib.

O, Ermənistanda davam edən narazılıqların ölkə hakimiyyətinin dəyişilmə, yaxud dəyişilməmə ehtimalları mümkünlüklərinə da öz proqnozlarını irəli sürüb. Onun sözlərinə görə, bu, baş verə bilər, ancaq Ermənistan hələ həmin hadisələrə qədər özünü məhvetmə prosesinə qədəm qoyub: "Miqrantların dedikləri kimi, soyuq Sevandan (Göyçə gölü) Atlantikanın ılıq sularına qədər". Erməni diasporu rəsmi İrəvandan ümidlərini üzüb və bundan sonra bir daha nəhəng subsidiyalar ayırmaq istəmir, hansı ki, həmin subsidiyalar uşaqlara yardımlar yerinə bahalı maşınlara və İrəvan elitasının villalarına xərclənirdi. Ekspertlərin qiymətləndirmələrinə görə, son illərdə Azərbaycan diasporunun potensialı həmin ABŞ-da kifayət qədər güclənib. Türklərin təşkilatları ilə ittifaqda onlar heç də ermənilərin potensiallarından geri qalmırlar. Rusiyadakı ermənilər isə Ermənistanı "baş tutmayan layihə" adlandırırlar. Revanşçı əhval-ruhiyyə yalnız müharibədəki məğlubiyyətlə əlaqəli deyil, həm də ona görədir ki, 30 ildə real müstəqil və iqtisadi cəhətdən güclü dövlət qurula bilinmədi. Bu, aqoniyadır. Və əgər erməni cəmiyyəti bundan sonra da həmin yolla getməyə davam etsə, bu ölkə dünya xəritəsindən silinəcək".

### "Paşinyan özü-özlüyündə faciəvi fiqurdur"

Poloskova Paşinyanın erməni hərbçiləri tərəfindən Azərbaycanın mövqelərini gündəlik şəkildə atəşə tutması faktlarının qarşısının alınmasına etinasız münasibət nümayiş etdirməsinə də aydınlıq gətirib və bildirib ki, erməni baş nazir yalnız hakimiyyəti saxlamağa cəhd göstərmir və bu, artıq keçilmiş mərhələdir, həmçinin, nəzərə çarpmayan hər hansı uğurlara söykənmir: "Söhbət müxalifətin hakimiyyətə yiyələnəcəyi halında azadlığı və mümkündür ki, həyatı qorumaqdan gedir. Əlbəttə ki, etirazlar dəhşətli və kütləvi hal almazsa. Tarixdə belə presedentlər yaşanıb. İyunun 1-də 2020-ci il müharibəsində həlak olmuşların valideynləri İstintaq komitəsinin qarşısında etiraz aksiyası keçirərək Paşinyanı cinayət məsuliyyətinə cəlb etməyə çağırırdılar. Məgər bu azdır? Ancaq "su daşı itiləyir". Paşinyan isə artıq "xalqın sevimlisi" deyil və "xalqın tribunası" təsirini də çoxdan itirib. Paşinyan baş nazir qismində açıq-aşkar erməni dövlətindəki proseslərə, hətta həlledici nöqtələrində belə nəzarət edə bilmir. Onun hakimiyyət strukturlarında ciddi dəstək qrupu yoxdur, o ki qalsın beynəlxalq səviyyədəki "Paşinyan dostlarına". O özü-özlüyündə faciəvi fiqurdur və nə qədər qəribə görünsə də, Azərbaycanla münasibətlər yaratmaq, Türkiyə ilə diplomatik münasibətləri bərpa etmək onun mövqelərini möhkəmləndirə bilər. Ancaq o, bilmirəm ya şəxsi keyfiyyətləri səbəbindən, yaxud da xarici qüvvələrin təzyiqləri üzündən bu addımları da atmağa cürət etmir".

### "Mümkündür ki, tezliklə Mərkəzi Asiya da alovlansın – orada situasiya gərgindir"

Poloskova əvvəl-axır Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanacağını istisna etməsə də, bu prosesin yaxınlarda baş verəcəyinə inanmadığını da bildirib. Rusiyalı siyasətçi Moskvanın hazırkı məqamda Bakı ilə İrəvana olan münasibətindən də danışıb, eləcə də Rusiyanı qıcıqlandıran faktorlara da toxunub: "Bəli, indi Rusiyanın nə Bakı, nə də İrəvana vaxt ayırmağa imkanı yoxdur. Ukraynada blitskrikə nail olunmadı, sanksiyalar Rusiyanın iqtisadiyyatına və sadə rusiyalıların həyatlarına ağır zərbələr vurur... Cəmiyyətin əhval-ruhiyyəsi aydındır ki, heç də xoş deyil. Sadə rusiyalılar üçün isə, ümumiyyətlə, Cənubi Qafqaz maraq kəsb etmir və yalnız sadə insanlar deyil. Mümkündür ki, tezliklə Mərkəzi Asiya da alovlansın – orada situasiya gərgindir. Lakin bu müşahidələrimlə mən Mərkəzi Asiya ilə bağlı monitorinqlərimi başa çatdırdıqdan sonra, yəni bir neçə ay sonra bölüşəcəm, indi də bu işlə məşğulam. Kremli isə hazırda çox şeylər qıcıqlandırır. Bunu daha çox etiraf kimi qəbul etmək mümkündür. Bu cür həmişə olur, nə vaxt ki, işçiləri baş verənlərin real mənzərəsini deyil, fərqli məsələləri rəislərinə deyərək ona yarınmaq istəyirlər və nəticədə həqiqət anı yetişir. Heyf ki, bunun da nəticəsi çox baha başa gəlir".

### "Təəssüf ki, Rusiyada türk ictimai rəyinin bu tərəfindən olan məlumatlar azdır"

Rusiyalı politoloq erməni-türk münasibətlərinin normallaşması mümkünlüyü barədə də danışıb və bildirib ki, həmin mümkünlük kifayət qədər genişdir: "Ermənilər əsrlər boyu Türkiyədə yaşayıblar və indiyə qədər də yaşayırlar. Özü də yalnız iqtisadiyyatda deyil, siyasətdə də kifayət qədər güclü mövqelərə malikdirlər. Təəssüf ki, Rusiyada türk ictimai rəyinin bu tərəfindən olan məlumatlar azdır. Necə ki, Ermənistanın təsis edilməsində, paytaxtının isə İrəvanın təyin olunmasında, həmçinin, ölkə ərazilərinin formalaşdırılmasında, eləcə də bütün bunların siyasi oyunlarda istifadəsi reallıqlarında olduğu kimi".

Dövlət müşaviri sonda xatırladıb ki, vaxtilə məhz ermənilərdən istifadə edilməklə Osmanlı imperiyasına hücumlar başlanıldı və bunun kimin üçün sərf etməsi də, əslində, bəllidir. O, tarixə müraciət edərək bildirib ki, daşnak təxribatları siyasi oyunlarda istifadə edilməsəydi, ermənilər bu gün daha çox şəkildə Türkiyədə digər xalqlarla birlikdə sülh şəraitində yaşayacaqdılar. "Bu baxımdan, erməni-türk münasibətlərinin normallaşmasında maneələr görmürəm. Özü də baxmayaraq ki, sərhədlər bağlıdır, Ermənistan və Türkiyə xalqları arasında münasibətlər kəsilmirdi. Lakin bu, ayrı və böyük mövzudur", deyə politoloq fikirlərinin sonunda bildirib.

**Afət Tahirqızı**



# Kəndirdə yellənən gələcək

**Elçin Bayramlı**

***Düz 2 gün düşündüm- 1 iyunda uşaqların hansı problemini yazım deyə. Bir deyil, iki deyil, hansını seçəsən? Axırda bu qərara gəldim ki, ən dəhşətli mövzuya girişim- uşaq intiharlarına...***

Son dövrlərdə tanış olmadığımız bir tendensiya vüsət alıb- uşaqlar intihar edir. Sovet vaxtı intihar faktına, xüsusilə də uşaq intiharı faktına çox nadir hallarda rast gəlirdik. İndi isə hər həftə uşaq intiharı xəbərləri izləyirik. Nə baş verir? Uşaqlar niyə yelləncəkdə yox, boğazlarına keçirdikləri kəndirdə yellənir? Buna onları, kim, nə, niyə, necə məcbur edir? Çətin və dəhşətli suallardır.

Cəmiyyətlərin, dövlətlərin, quruluşların fərqi əslində, intiharların səviyyəsi ilə ölçülməlidir. Qalan bütün sosial, iqtisadi, siyasi üstünlüklərin heç bir rolu ola bilməz. Məsələn, dünyada intiharlara görə, iri kapitalist dövlətləri- Yaponiya, ABŞ, Britaniya və bir sıra Avropa ölkələrinin ilk yerləri tutması o deməkdir ki, bu ölkələrdə insan faktoru öndə deyil.

Dövlətin iqtisadi qüdrəti yüksək ola bilər, amma insanlar üçün normal, təhlükəsiz, psixoloji gərginliksiz cəmiyyət sistemi qurulmayıbsa, deməli bu dövlətdə yaşamaq təhlükəlidir. Maddi rifah da hər şey demək deyil. Başqa məsələlər var- gözlə görünməyən, əllə toxunulmayan məsələlər.

Azərbaycan social baxımdan orta mövqeələrdə qərarlaşıb, bizdə dünyanın bir sıra ölkələrindən daha aşağı sosial rifah olsa da, bir çox ölkələrinə baxanda daha uyğun həyat şəraiti var. Yəni, Avropadan, Rusiyadan, Yaponiyadan, ABŞ-dan... geri qalırıq, amma hər halda bura nə Afrika ölkəsidir, nə də Yaxış Şərq. Bəs o zaman bu problemlər hardan qaynaqlanır?

İntiharlarda sosial problemlərin rolunu inkar etmək olmaz. Lakin, etiraf etməliyik ki, indiki dövrdə və bizim kimi ölkədə intiharların əsas səbəbləri arasında təkcə sosial-iqtisadi problemlər deyil, mənəvi-psixoloji məsələlər daha böyük paya malikdir.

Cəmiyyətimizdə intiharlara qarşı formalaşmış stereotiplər var. Məsələn, əgər intihar edən azyaşlı və yeniyetmə qız uşağıdırsa, hamı bir qayda olaraq onu mütləq təcavüz olunduğunu düşünür. Heç kim o qızın ailəsində və ətrafında baş verənləri görmür, onun cəmiyyətdən nələr gördüyünü, hansı sosial və psixoloji problemlər yaşadığını gözardı edirlər.

İntiharların artmasında bioloji və genetik təzyiqləri də qeyd etməmək olmaz. Son vaxtlar uşaqların çoxuna ana südü verilmir, körpələr kimyəvi, sintetik və GMO qidalar, süni kimyəvi içkilərlə böyüyür. Ətrafda isə, daha çox aqressiya, problem, əzab görür. Bir yandan da televiziyalar, azad internet. Qlobal miqyasda psixotron terror gedir.

Uşaqlar ənənəvi məkanlarından məktəblərdən, yaradıcılıq mərkəzlərindən, istirahət düşərgələrindən, idman salonlarından... ayrılaraq küçələrə tərk edilib. Ən yaxşı halda dəhşətli oyunlar oynadıqları, pornoya, zorlamaya, qanlı döyüş səhnələrinə baxdıqları azad internetə buraxılıb. Sevgi, qayğı, diqqət görməyən, dünya üzrə 1-ci yerə çıxdığımız boşanmalar nəticəsində ortalıqda yetim qalıb psixoloji travma alan uşaqlar çoxalır.

Nəticəsi ortadadır- uşaqlarımız həyətlərdə yerində qaraj və ya biznes obyekti tikilməsi üçün ləğv edilmiş yelləncəklərdə yellənmək əvəzinə, boğazlarına keçirdikləri kəndirdə yellənirlər... Əslində, kəndirdə yellənən və yellənməli olan bizik- cəmiyyət olaraq. Onları belə dəhşətli "əyləncəyə" sürüklədiyimiz üçün...

Uşaq intiharı uşaqların böyüklərə etirazının ən sərt və ən dəhşətli formasıdır. Bəzi uşaqların intihardan əvvəl yazıb qoyduğu məktublar isə, ən ağır təhqirdir gələcəyini qoruya bilməyən cəmiyyət üçün...

Bizə ünvanlanmış mesajın ümumi məğzi çox qısa və konkretdir- Tfu sizin üzünüzə...

# “Azərbaycanda ədəbiyyat adına müstəqil portal yoxdur”



## *Gənc yazarla söhbət*

***“Ədəbi adam” layihəsində oxucular gənc yazıçıların, şairlərin yaradıcılıq, ədəbiyyat, poeziya, sənət haqda düşüncələri ilə tanış olacaq. Layihənin budəfəki qonağı yazar Orxan Həsənidir. "Səs" qəzeti yazar Orxan Həsəni ilə müsahibəni təqdim edir:***

**– Bir müddətdir ki, Bakıdan, şəhər həyatından uzaqlaşmısan. Necə düşünürsən, yaradıcılıq taleyinin hansı yerindədir?**

–Yaradıcılıq taleyimin mərkəzindədir. Ədəbiyyat bu sarıdan çox qısqancdır. Daim həyatının, taleyinin, seçimlərinin mərkəzində olmaq istəyir. Heç kimlə, heç nəylə yanaşı durmağa razı olmur. O, yeganə olmalıdır. Bu mənada həyatını ədəbiyyata həsr eləmək üçün nələrdənsə imtina eləməyi bacarmalısan. Peşəkar münasibət bunu tələb edir.İndi işimlə bağlı Bakıdan, ədəbi mühitin üreyindən uzaq düşmüşəm. Lakin uzaqda olmağın mənim üçün faydalı olduğunu düşünürəm. Əyalətdə sakit, arxayın bir həyatım olsa da, dostlarımla ədəbiyyat, sənət haqqında mütəmadi danışır, baş verən mədəni prosesləri müzakirə edirik.Burada yazdıqlarım və yazacaqlarım haqqında dərindən düşünürəm. Daim qeydlər edirəm, oxuyuram, beynimdə durmadan dolaşan süjetləri, obrazları ədəbiyyata gətirməyə çalışıram. Mənə görə yazıçı üçün bundan böyük xoşbəxtlik yoxdur. Ürəyimdə gücünü haradan aldığını bilmədiyim müdhiş bir ümid var.

**– Ədəbiyyat yaratmaq üçün kənd, yoxsa şəhər önəmli rol oynayır?**

– Ədəbiyyatı yaratmaq üçün güclü iradə, sakit həyat, maddi və məişət problemlərinə yönəlməyən fikir, banalı duymaq bacarığı, intellektual yanaşma və saf istedad əhəmiyyətli rol oynayır. Şəhər, kənd fərqləri isə müəllifdən müəllifə dəyişir. Məkan sadəcə qabıqdır. Açığı mənim üçün harada olmağın heç bir əhəmiyyəti yoxdur. Sakit otaqda-komputerimlə təkbətək qalmaq kifayət edir.

**– Məncə, sən ədəbiyyata kitablardan gəlmisən. Səncə, ədəbiyyata kitablardan gələn yazıçı daha uğurlu olur, yoxsa həyatdan?**

– Öz yaradıcılığımda kitabların və həyatın qovuşub çulğaşmasını istərdim. Bunu reallaşdırmağa çalışıram və uğur haqqında qətiyyən düşünmürəm. Açığı uğur vecimə deyil. İçimdəki nəğməni oxumaq istəyirəm və məni həyata bağlayan yalnız bu nəğməni oxumaqdır.Ümumən yazmaqdan çox oxuyuram, daim araşdırıram, ensiklopedik düşünməyə çalışıram. Yazı prosesində bu çox köməyimə çatır. Xüsusən sevdiyim əsərləri yenidən-yenidən oxuyur, onların sehrli dünyasında gəzişirəm.Özüm üçün mövzular müəyyən etmişəm. Həyatım boyu bu mövzuların ətrafında dolaşacağımı düşünürəm. Məncə, hər yazıçı öz fərdi mifologiyası haqqında dərindən fikirləşməli, götür-qoy eləməlidir. Fərdi mifologiya əhəmiyyətli məsələdir. Fərdi mifologiya getdiyin yolu cızmaqdır.Kitabları və həyatı bu qədər sərt şəkildə ayırmağın isə tərəfdarı deyiləm. Bəzən kitablar həyatdan, bəzən də həyat kitablardan təsirlənir.

**– Yaxın günlərdə ilk romanın işıq üzü görəcək. Səncə, roman üçün tələsmədin?**

– Romanı yazmağa başlamağım həyatımda ciddi dəyişikliklərə getməklə başladı. Yalqızlığı, həyatımı ədəbiyyata həsr etməyi seçdim. Artıq yalnız roman yazmaq və bu janrın incəlikləri haqqında düşünmək, istedadımı və intellektimi bu janrın parlaq nümunələrini yaratmağa xərcləmək istəyirəm. Sən deyirsən tələsmək, lakin unutmaq olmaz ki, hər çiçək öz vaxtında açır. İlk romanım “Və dalğalandı yaddaş tarlası” belə başa gəldi.Xüsusən roman janrı müəllifdən təcrübə istəyir. Təcrübəni isə gözləyərək qazana bilməzsən, daim yazmalı, alternativ həyatı kərpic-kərpic inşa eləməlisən, bunun müxtəlif yolları haqqında düşünməlisən. Əgər təcrübəni erkən yaşda qazana bilməyəcəksənsə, gələcəkdə çox çətin olacaq.

**– “Və dalğalandı yaddaş tarlası” romanın mövzusu nədir?**

– Adından da göründüyü kimi romanın mövzusu yaddaşdır. Unutmaq və xatırlamaq haqqındadır. Bu iki aktı səkkiz nəfər tələb yoldaşın bir-biri ilə olduqca mürəkkəb münasibətləri vasitəsilə açmağa çalışmışam.Roman iki hissədən ibarətdir. Birinci hissə 2017-ci ilin yanında cərəyan edir. İkinci hissə 2019-cu ildə. Oğlanlı-qızlıKörpükənd adlı xəyali məkana səyahətə yollanan tələbə yoldaşları burada yaşadıqlarını tələbəliyin gələcək illərində daim yenidən-yenidən xatırlayır, xatirələrin dəyişən mənalarının – sevincini və kədərini duyurlar. Eyni zamanda romanda müxtəlif yazı stillərindən və modern nəsr elementlərindən istifadə eləmişəm. Bu da romanı əyləncəli hala salır.

**– Romanı yazmağın neçə il çəkdi?**

– İki il çəkdi.2020-ci ilin sonlarına yaxın başlamışdım və 2023-cü ilin baharında sonuncu cümləni yazıb qollarımı başımın arxasında arxayınca birləşdirdim.

**– Yazmadığın günlərin hayıfını necə çıxırsan? Və ya sənətkar həmişə müntəzəm yazmalıdırmı?**

– Həftə sonlarını çıxmaq şərti ilə, demək olar, hər gün 500 söz yazıram. Ya səhər əyalətdəki işimə hamıdan erkən gəlib yazmağa başlayır, ya da işdən sonra qalıb gecəyə qədər çalışıram. Həftə sonları isə rayondakı dostlarımla görüşür, ədəbiyyatdan kənar məsələlər barəsində söhbətləşir, ədəbiyyatla bağlı hər şey müvəqqəti unutmaq istəyirəm, bəzənbanal filmlərə baxıram, balıq tutmağa, yaxın rayonlara gəzintiyə çıxıram.Həftə içi günə 500 söz yazmasam, özümü olduqca mənasız və əhəmiyyətsiz hiss edirəm. İnsanlarla ünsiyyətim pisləşir, qanım qaralır. Hər sözdən inciyirəm, heç kimi eşitmək istəmirəm, daha çox içimə yönəlirəm. Belə olanda halda yazmaq üçün daha çox motivasiya qazanıram və özümü daha güclü hesab edirəm. Məncə, yazıçı müntəzəm yazmalıdır. Onun yeganə missiyası yazmaqdır.

**– Müasir zaman bu gün çox sürətlidir. İnternet, sosial şəbəkələr, informasiyaların axını insan ruhuna, qəlbinə təsir göstərir, onu yükləyir. Belə bir şəraitdə kitabın qüdrəti və imkanları insanın mənəvi aləmini qorumağa, xilas etməyə çatırmı?**

– Kitabın qüdrəti haqqında düşünmək məni qətiyyən qayğılandırmır. Elektron kitablara və səsli kitablara qarşı münasibətim loyaldır. Mənim işim onun haqqında düşünmək yox, yazmaq və yazdığına inanmaqdır.

**– Əvvəl ədəbi dərnəklər var idi, hər yazının hansı dərnəyə aid olduğunu, yaxud olmadığını bilmək mümkün idi. Necə düşünürsən, indi bəzi ədəbi portallar həmin portalların rolunu oynayırmı?**

– Hansı ədəbi portallar? Azərbaycanda ədəbiyyat adına müstəqil portal yoxdur.

**– Yaradıcı adamların içkiyə daha çox qapılmasının səbəbini necə izah edərsən? Azərbaycanda Sovetdənqalma klişe var ki, yazıçılar, şairlər içən olur. İçməsələr yaza bilmirlər. Sən necə, içki içəndə yazmaq hissin oyanırmı?**

– Mən ümumiyyətlə içib yazmağı qəbul etmirəm. Sərxoşkən yazı yazmaq fiziki olaraq mümkün deyil. Özüm də içə bilmirəm. İçəndə əlim ayağıma dolaşır, yaradıcı əhvalım düşür, səhər baş ağrısı ilə oyanıramsa, demək olar, həmin gün heç nə yaza bilmirəm və özümü çox bədbəxt hiss edirəm. Yaradıcı beyin ayıq olmalıdır.

***SÖHBƏTLƏŞDİ: OĞUZ AYVAZ***

# Moskva görüşü Azərbaycan Prezidentinin növbəti diplomatik qələbəsidir



**SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri**

Son bir ay ərzində Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində müxtəlif səviyyələrdə görüşlər keçirilib. Bütün bu danışıqlar, aparılan müzakirələr tərəfləri sülh sazişinə nail olmağa bir qədər də yaxınlaşdırdı. Mayın 25-də Moskvada Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə keçirilən görüşdə masanın bir tərəfində qalib ölkənin lideri, qətiyyətli və güclü siyasətçi, öz ölkəsini dünyada söz sahibinə, güc mərkəzinə çevirən Azərbaycan Prezidenti İlham Əliyev, digər tərəfində isə məğlub ölkənin hökumət başçısı, bütün beynəlxalq tədbirlərdə olduğu kimi Moskvada da özünü gülünc hədəfinə çevirən, siyasətçi kəlməsini belə özündə daşımağı bacarmayan Ermənistanın baş naziri Nikol Paşinyan əyləşmişdi.

Tədbirdə Prezident İlham Əliyev dərin məzmunlu çıxış edərək ölkəmizin iqtisadi imkanları və təşkilata üzv ölkələrlə fəal əlaqələri haqqında ətraflı məlumat verdi. Dövlətimizin başçısı hər zaman görüşlərində sülh müqaviləsinin yalnız təklif etdiyi 5 məlum prinsip əsasında imzalana biləcəyini vurğuladı. Və bu gün Azərbaycan Prezidenti konstruktiv mövqe ortaya qoyur, regionda davamlı və dayanıqlı sülhün əldə edilməsi üçün təkcə bəyanatlar vermir, bu istiqamətdə konkret əməli işlərin görülməsinin tərəfdarıdır. Bu baxımdan da Azərbaycan bir nümunədir. Görüşdə Prezident İlham Əliyev Azərbaycanın çox geniş iqtisadi potensialı olduğunu vurğulayaraq bildirdi ki, ölkəmiz Xəzər dənizində ən böyük ticarət donanmasına malikdir. Azərbaycanın öz ticarət donanması ilə yükdaşıma potensialı kifayət qədər böyükdür. Bu gün Azərbaycan həmin yükdaşıma potensialını daha da genişləndirmək imkanlarına malikdir.

Eyni zamanda, dövlətimizin başçısı çıxışında Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin coğrafi kəsişməsində yerləşməsinin əhəmiyyətini vurğuladı, həmçinin ölkəmizin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürdüyünü xatırlatdı. Lakin Ermənistanın baş naziri əsassız olaraq “Zəngəzur dəhlizi” ifadəsini ərazi iddiası kimi qiymətləndirib. Dövlətimizin başçısı isə bu iddianın absurd olduğunu tutarlı arqumentlərlə əsaslandırıb.

Nikol Paşinyan isə əvvəlki görüşlərdə olduğu kimi, Ali Avrasiya İqtisadi Şurasının iclasında da protokoldan tam kənar, etiket qaydalarına belə riayət etməyərək bu dəfə də Qərbdəki ağalarının dediklərini təkrarladı. Belə ki, Azərbaycanın Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini yaratmasını Paşinyan Xankəndidəki ermənilərin guya blokadada saxladığını, eləcə də Ermənistanın ərazi bütövlüyünün Azərbaycan tərəfindən pozulduğunu iddia etsə də, istəyi ürəyində qaldı.

Qeyd edək ki, Praqada 5-ci Brüssel görüşündə və sonrakı üçtərəfli görüşlərdə Paşinyan Azərbaycanın 86,6 min kv. km olmaqla ərazi bütövlüyünü tanıdığını söyləmişdi. Prezident İlham Əliyev Azərbaycanın həyata keçirdiyi bütün tədbirlərin, o cümlədən Xankəndi-Laçın yolundakı nəzarət buraxılış məntəqəsinin yaradılmasının beynəlxalq hüququn prinsiplərinə uyğun həyata keçirildiyini faktlarla Paşinyanın diqqətinə çatdırmaqla ona hüquqi dərs keçdi. Əvvəlki görüşlərdə olduğu kimi, bu görüşdə də Paşinyan bir tərəfdən sülh prosesindən danışır, Moskvanın vasitəçiliyini təqdir etdiyini deyir, digər tərəfdən də ölkəsi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaq və yaxud fəaliyyətini dondurmaqla bağlı mövqe də ifadə edir. Yeri gəlmişkən Minsk şəhərində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Müdafiə Nazirləri Şurasının toplantısına Ermənistan qatılmayıb. Bu fakt da onu göstərir ki, İrəvan-Moskva münasibətlərindəki gərginlik daha da artmaqdadır. Bunu Rusiyanın yüksəkrütbəli rəsmiləri də etiraf edirlər.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin Ali Avrasiya Şurasının iclasında qonaq qismində iştirak etməsi bir daha sübut edir ki, ölkəmiz bu qurumun üzvqonaq qismində olmasa da, dövlətimizə, onun ali siyasi rəhbərliyinə çox böyük inam, etibar və etimad mövcuddur. Eyni zamanda, bu görüş çərçivəsində Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında aparılan danışıqlarda ölkəmizin mövqeyi kifayət qədər güclü idi. Ümumilikdə, mayın 25-də Moskvada keçirilən üçtərəfli görüşündə də Azərbaycan Prezidenti İlham Əliyevin diplomatiyası və siyasəti Ermənistan üzərində daha bir tarixi qələbə qazandı.

# Uşaq və süd günü: bu, bir təsadüfmü?..

***Maraqlıdır, 1 iyun həm Uşaqların Beynəlxalq Müdafiəsi, həm də Ümumdünya Süd Günüdür. Bu iki bir-biri ilə bağlı hadisənin bir günə təsadüf etməsində böyük bir mənanın olduğunu görməmək mümkün deyil. 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününün məqsədi uşaq hüquqlarının təmin edilməsidirsə, 1 İyun Ümumdünya Süd Gününün məqsədi isə uşaqların müdafiəsində, sağlamlığında südün rolunun aşılanmasıdır.***




Dünyaya uşaq gəlir, dünyamızı bəzəyir. Evlərimizə sevinc, təntənə bəxş edir. Nəslimizin artmasına, yaşamasına xidmət edir bu balaca varlıqların dünyaya gəlişi. Sevinirik, şadyanalıq edirik. Onun ilk qidası süddür-ana südü. Minlərlə irili-xırdalı vitaminləri özündə birləşdirən, uşağın sağlam böyüməsində, dincliyində, sakitliyində, yuxusunda, bir sözlə, günlük həyat tərzində böyük əhəmiyyətə malik olan ana südü.

Uşaq və süd. Bu iki əlamətdar günün bir araya təsadüf etməsi bəlkə də dünyaya bir mesajdır. Axı müasir dövrümüzdə minlərlə ana vardır ki, uşağını ana südü ilə qidalandırmaq istəmir. Uşaq və süd gününün 1 iyuna təsadüfünü uşaqların müdafiəsi kimi, ana südünün də müdafiəsinə mübarizə günü kimi dəyərləndirmək olar.

### Ana südünün əhəmiyyəti

Amerika Pediatriya Akademiyasının tövsiyəsinə görə, körpə ilk 6 ay ərzində yalnız ana südü ilə qidalandırılmalı və bu, ən azı 1 yaşa qədər davam etdirməlidir. Ümumdünya Səhiyyə Təşkilatı da körpələri ana südü ilə qidalandırmağa doğuşdan bir saat sonra başlamağı, 2 yaş və ya daha uzun müddətə davam etdirməyi məsləhət görür.

Ana südü yenidoğulmuşlar və körpələr üçün optimal qidalanmanı təmin edir. O, lazımi miqdarda qida maddələrinə malikdir və asanlıqla həzm olunur.

Araşdırma apararkən mütəxəssis Cəmilə Hacızadənin qarşıma çıxan elmi məqaləsində qeyd olunur ki, ana südü ifrazolunma müddətinə və tərkibinə görə kolostrum, keçid südü və yetkin süddən ibarətdir. Kolostrum doğuşdan sonra ilk 5 gün ərzində ifraz olunan, qatı və sarımtıl rəngli süddür. Tərkibində az yağ və laktoza var. O, xüsusən infeksiya əleyhinə xüsusiyyətə malik zülallarla zəngindir. Kolostrum immunoqlobulinlərlə zəngin olduğundan yeni doğulmuş körpəni xarici mühitin patogen amillərindən, yeni mikroorqanizmlərdən qoruyur. Həmin xüsusiyyətinə görə kolostrum körpənin ilk peyvəndi olaraq qəbul edilir. Həmçinin yeni doğulmuş uşağın formalaşmamış həzm sisteminin inkişafına kömək edir. İlk bir neçə gündən sonra körpənin mədəsi böyüdükcə ananın orqanizmi daha çox süd istehsal etməyə başlayır.





Ana südü körpələr üçün ideal qidalanmanı təmin edir. Ana südü ilə qidalanma körpənin bir sıra xəstəliklərə tutulma riskini azalda bilər, onun çəkisini sağlam şəkildə artırır. Ana südü mühüm antitellər ehtiva edir, uşaqların zehni inkişafında böyük əhəmiyyətə malikdir.

### Nə üçün körpələrə süd vermək istəmirik?..

Müqəddəs kitabımız olan "Quran" surələrinin 11 ayəsində, xüsusən, Bəqərə surəsində açıq şəkildə deyilir: "Körpələrinizdən ana südünü əsirgəməyin. Doğulandan sonra tam iki il ona süd verin".

Ana südü Yaradanın insana, anaya verdiyi ən gözəl təbii nemət və körpəyə verilən ən təhlükəsiz və dəyərli qidadır. Bir vaxtlar tibb ana südünün yalnız körpənin 4, sonralar 6 ayına qədər verilməsini əsas sayırdısa, dünya təbabəti bu gün bu vaxtın iki ilə qədər uzadılmasını elmi əsaslarla tövsiyə edir. Belə isə hər bir ananın vəzifəsidir ki, dünyaya gətirdiyi övladını öz südü ilə qidalandırsın. Ana südünün körpəyə nə qədər vacib olması əsrlər boyu sübut olunmuş və hər birimizin təcrübəsində özünü doğrultmuşdur.



Təəssüf ki, bu gün tez-tez anaların körpələrinə süd verməkdən imtina etmələri kimi hadisələrlə qarşılaşırıq. Çox ana südünün olmadığını bəhanə gətirərək əslində fiqurasının pozulmaması üçün övladına südünü çox görür. Lakin əvvəllər belə deyildi. Ana-nənələrimiz vardı ki, hələ gəlini-qızı yenicə hamilə olan vaxtdan ta doğuşa qədər evlərdə maarifləmə aparır, ana südünün faydalarından danışır, ana olacaq qadını elə yetişdirirdi ki, o, birinci vəzifəsi kimi körpəsinə ana südünü verməli olduğunu dərk edirdi. Beləliklə də uşaq dünyaya gələndən sonra ona aldığı tövsiyələrlə elə yanaşırdı ki, həm uşaq normal əmməyi öyrənirdi, həm də südü davamlı gəlirdi.

Lakin müasir dövrümüzdə necədir? Hazırda anaların süd verməkdən imtina etməsində bütün cəmiyyət kimi, həm də onların böyüklərinin günahı var. Tanıdığım bir qadının qızı heç bir il deyil ki, ikinci dəfə ana olub. Anası ona tövsiyə edirmiş ki, nə badə körpəyə süd verəsən, fiquran korlanar. Bu söhbəti eşidəndə, günlərlə özümə gələ bilmədim. Çünki məsləhət verən ana müəllim idi. Bir müəllimin bu təfəkkürə malik olmasını əsla həzm edə bilmirdim. Lakin gənc ana qayınanasının tövsiyəsi ilə körpəsini ancaq ana südü ilə qidalandırmağa başladı. Hazırda uşağın bir yaşının tamam olmasına bəlkə də bir aydan az vaxt qalır. Hələ də o körpə ana südündən başqa qida dadmayıb. Çox sağlam bir uşaqdır. Bax, bu cür onlarla nümunələr çəkmək olar. Düşünəndə ki, gənc ananın heç bir təcrübəsi yoxdur, biz böyüklər ona hansı tövsiyə və məsləhəti versək, onunla razılaşacaq, bəs belə isə nə üçün faydalı məsləhətlər verməyək?

Düzdür, həmişə yazılarımda vurğulamışam ki, internet həyatımıza daxil oldu-olmadı, həyatımız alt-üst oldu. Gənc analar internet vasitəsilə süd verməklə fiquralarının pozulacağını öyrənirlər. Bunu analıq hissindən kənar, övladının sağlamlığını gözəl görünməyə qurban verən ana deməzdim, qadınlardan öyrənirlər. Lakin analarımız arasında buna məna verməyəni də var, beynində saxlayıb ana olan kimi həyata keçirəni də var. Odur ki, Azərbaycanda körpəyə süd verməmək, südü qəsdən qurutmaq kimi hallar çoxalıb. Elə bu səbəbdən də ana olan qadınlarımızın az faizi, yəni 50 faizi körpəsini ana südü ilə qidalandırır. Lakin nəzərə alsaq ki, ana südü hazır qidadır, bəzən gecə yorğunluğu bəhanə gətirib körpəsini qidalandırmaq istəməyən analara bir sual vermək istəyirəm: gecə uşaq oyanıb ağlayanda onu qucağına alıb hazır ana südü ilə onu qidalandırmaq rahat və yaxşıdır, yoxsa qalxıb mətbəxə gedib, su isidib, süni yemək hazırlayıb gətirib uşağı qıdalandırmaq yaxşıdır? Ana gələnədək də uşağın ağlamaqdan yuxusu pozulur. Yesə, qarnı doysa da, nə özü yatır, nə də ana. Hansı sənə sərf edər? Həqiqətən, ağıllı başla, məntiqlə düşünəndə hazır yeməyi qoyub insan özünə nə üçün bu qədər zülm edir, anlamıram. Həm də süni yeməklərin tərkibini, övladımızın sağlamlığı üçün zərərli olduğunu bilə-bilə...

Unutmayaq ki, yeni doğulmuş körpənin heç olmazsa, 6 aya qədər əmizdirilməsi ilə hər il 1000 uşağın ölümünün qarşısı alına bilər.

### 50 faiz uşaq, 50 faiz ana

Körpənin ana südü ilə əmizdirilməsi 50 faiz uşaq üçün əhəmiyyətlidirsə, 50 faiz də ana üçün faydalıdır. Belə ki, ana südü ilə qidalandırma ilkin olaraq körpəni qulaq infeksiyalarından, ishal, pnevmoniya və digər xəstəliklərdən qoruyur. Döş xərçəngi, yumurtalıq xərçəngi və diabet riskini azaltmaqla həm də analar üçün faydalı olur?

Uzun müddət ana südü ilə qidalandırma uşağı orta qulaq, boğaz və sinus infeksiyalarından, həmçinin çoxsaylı tənəffüs və mədə-bağırsaq xəstəliklərindən qoruyur. Hətta 6 ay ərzində yalnız ana südü ilə qidalanan körpələrdə ciddi soyuqdəyməyə məruz qalma, eləcə də qulaq və boğaz infeksiyalarına tutulma, ani körpə ölümü sindromu, astma, atopik dermatit və ekzema, diabet, leykozun yaranması riski daha az olur.

Ana südü ilə qidalanma sağlam çəki artımına kömək edir və piylənmənin qarşısını alır. Araşdırmalar göstərir ki, 4 aydan çox ana südü ilə qidalanma körpənin artıq çəki və piylənmə riskini əhəmiyyətli dərəcədə azaldır. Bu, müxtəlif bağırsaq bakteriyalarının inkişafı ilə əlaqədar ola bilər. Ana südü ilə qidalanan körpələrdə çox miqdarda faydalı bağırsaq bakteriyası var ki, bu da yağların depolanmasına təsir edir. Ana südü ilə qidalandırılan körpələrin orqanizmində süni qida ilə qidalanan körpələrə nisbətən daha çox leptin var. Leptin iştahanı və yağ yığımını tənzimləyən əsas hormondur.

Ana südü uşaqların zehni inkişafına təsir edir. Araşdırmalar nəticəsində müəyyən olunub ki, ana südü ilə qidalanma körpələrin uzunmüddətli beyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Həmçinin ana südü ilə qidalanan körpələr daha yüksək intellektə malik olur və böyüdükcə öyrənmə çətinliyinə, eləcə də davranış problemlərinə daha az məruz qalırlar.

Dünyada hər 10-cu qadın süd vəzisinin xərçəngi və uşaqlıq boyunun xərçəngindən əziyyət çəkir və bu, dünyada qadın ölümünə səbəb olan xəstəliklərin ilk sıralarındadır. Məhz Azərbaycan qadınlarında da bu xəstəliyin olması və yayılması ürəkaçan deyil. Dünya təcrübəsi göstərir ki, süd vəzisi xərçənginin ilkin mərhələdə aşkarlamaqla onun gələcək inkişafının qarşısını almaq mümkündür. Bu xəstəlik və ümumiyyətlə, cəmiyyət arasında belə xəstəliklərə qarşı maarifləndirmə işləri aparılmalıdır. Maarifləndrmənin əsas məqsədi odur ki, həmin xəstəliyin ilkin nəticələrini aşkar edən qadın həkim müayinəsindən keçir və xəstəlik erkən dövründə aşkarlandığı üçün müalicə olunur. Körpəsini ana südü ilə qidalanan qadınlarda bu xəstəliyin olma təhlükəsi digər süd verməyən qadınlara nisbətən azlıq təşkil edir. Odur ki, UNİSEF ana südü ilə əmizdirmənin təbliği ilə bağlı çox böyük işlər aparır. Bu təbliğatı evdə, iş yerində, xəstəxanalarda hər kəs gənc qadınlar üçün aparmalıdır ki, onlar özlərini hansı təhlükə ilə üz-üzə qoyduqlarını anlasınlar. Həm özlərini, həm də körpələrini xilas etsinlər.

Beləliklə, ana südü ilə qidalandırma həm uşaq, həm də ana üçün faydalıdır. Yaxşı olar ki, gənc analar fiqura, görünüş məsələlərini bir kənara qoyub bu barədə düşünsünlər. 1 iyunda uşaqlarınıza onların günü olduğunu anladarkən, əllərindən tutub gəzintiyə apararkən, hədiyyələr alarkən, düşünün, görün, siz onlara 1 iyuna aid olan ən böyük hədiyyəni-ana südünü verə bilmisinizmi?..

***Mətanət Məmmədova***

# “Azərbaycanın sülhə məcburetmə hüququ var”

*“İlham Əliyev Azərbaycanın Avrasiyanın əsas dövlətləri ilə çoxtərəfli formatda daha da yaxınlaşmağa hazır olduğunu nümayiş etdirdi”*



***Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov hesab edir ki, yaxın vaxtlarda Ermənistan-Azərbaycan nizamlanmasında ciddi irəliləyiş gözləmək olmaz. Hətta nəqliyyat və logistika blokunun açılması yolunda - Rusiya, Azərbaycan və Ermənistan liderlərinin mayın 25-də Moskvada müzakirə etdiyi məsələyə baxmayaraq. Ekspert bunun əsas səbəblərini “Moskva-Baku” portalına şərh edib. Politoloqun şərhini oxucularımıza təqdim edirik.***

### Bakı və İrəvan Moskvanın vasitəçiliyi ilə nəqliyyat və iqtisadi əlaqələrin bərpası ilə bağlı konkret razılığa gələcəkmi?

Hələlik, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin mayın 25-də Moskvada keçirilən görüşünün nəticələri qeyri-müəyyən görünür. Aydındır ki, Moskva Azərbaycan prezidenti ilə Ermənistanın baş naziri arasında ilkin olaraq nizamlanma üçün ölkələr arasında nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması, praktiki ticarətdə həm İrəvan, həm də Bakı üçün digər ölkələrə yük daşımalarında faydalıdır. Ona görə də Vladimir Putin, əslində, Paşinyanla Əliyev arasında dəhlizlərin nəqliyyat marşrutu, yoxsa yol olması ilə bağlı gərgin mübahisə zamanı yenidən sülhməramlı vasitəçi rolunu oynayır, hesab edir ki, əslində, bütün bunlar “texniki” xarakterli bir məsələdir. Ən əsası odur ki, tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyıb.

Bu həftə baş nazir müavinləri kilidin açılmasının texniki detallarını müzakirə edəcəklər. Lakin Rusiya prezidentinin mətbuat katibinin bu yaxınlarda verdiyi bəyanata əsaslanaraq deyə bilərik ki, əsas məsələ nə qədər tez nəticə əldə etmək deyil, nə qədər keyfiyyətlə nail olmaqdır. Daha əvvəl Ermənistanın baş nazirinin Laçın dəhlizi üzrə Moskva danışıqlarının nəticələrinin İrəvan üçün “qeyri-qənaətbəxş” olduğunu bildirməsinə və Azərbaycana qarşı guya razılaşmaları yerinə yetirmədiyinə dair növbəti ittihamlara əsasən, tərəflərin kommunikasiyaları blokdan çıxarmaq kimi sadə bir məsələnin həllində razılaşa biləyəcəyini söyləmək çətindir.

İyunun 8-də Soçidə MDB dövlətlərinin Hökumət Başçıları Şurasının iclası keçiriləcək. Rusiya baş naziri Mixail Mişustinlə Ermənistanın baş naziri Paşinyanın iclasdan sonra görüşəcəyi barədə artıq məlumat var, burada Mişustinin azərbaycanlı həmkarı ilə görüşünün də baş tutacağına şübhə yoxdur. Rusiya XİN etiraf edib ki, tərəflər Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələri blokdan çıxarmaq məsələlərini müzakirə edə bilərlər və bundan sonra 3 ölkə liderlərinin yeni görüşü mümkündür.

Beləliklə, razılaşmanın dərəcəsi hələ aydın deyil. Eyni zamanda, Əliyevin Zəngəzur dəhlizi ilə bağlı verdiyi açıqlamalara və bu konsepsiyanın Avrasiya Ali İqtisadi Şurasının iclasında müzakirəsinə, o cümlədən Nikol Paşinyanın artıq avtomobillərin sərbəst keçidi məsələsində İrəvanın problemləri ilə bağlı sonrakı bəyanatlarına əsaslansaq Laçın yolu ilə bağlı Azərbaycan prezidentinin əvvəlki bəyanatının gerçəkləşməsi tamamilə mümkündür - İrəvan Zəngəzur yolunun “dəhliz” məntiqinin həyata keçirilməsinə getməsə, onda Laçın yolunda erməni maşınları üçün pulsuz keçid olmayacaq.

Digər tərəfdən, Azərbaycanın mümkün güzəştlərinə, habelə nəqliyyat kommunikasiyalarının açılmasının Ermənistan üçün açıq-aşkar faydasına baxmayaraq, Yerevanın onsuz da bu layihəni davam etdirib-etdirməyəcəyi bəlli deyil. Uzağı yenidən imza atacaq, amma vaxtı uzadacaq. Müxalifət Ermənistan hakimiyyətinin azərbaycanpərəst mövqedə olması ittihamları ilə yenidən ayağa qalxsa da.

### İlham Əliyevin Bakının 3-cü dəfə Qarabağ ermənilərini dialoqa dəvət etməyəcəyi və Qarabağda özünü “administrasiya” adlandıran qurumları ləğv etməyə ehtiyac olduğu barədə bəyanatları ilə bağlı

İlham Əliyev bu yaxınlarda Laçın rayonunda olarkən nizamlanma ilə bağlı yenidən Ermənistana siqnal göndərib. Birincisi, mən hesab edirəm ki, ən mühüm bəyanatlardan biri odur ki, Qarabağdakı bəzi “idarələr”, qondarma separatçı “hökumətlər” buraxılmalıdır. Bir də ki, Bakı Qarabağ ermənilərinə sülh, danışıqlar əli uzatdı, lakin bu, sonsuzadək davam edə bilməz. Və əgər İrəvanda kimsə manipulyasiya etməyə cəhd etsə, o zaman bunun sonu onlar üçün yaxşı olmayacaq.

İkincisi, Əliyev xəbərdarlıq etdi ki, Azərbaycan güclü ölkədir, güclü regional mövqelərə və güclü orduya malikdir. Əgər Ermənistan sülh təşəbbüsləri ilə bağlı yalan danışmağa davam etsə, bunun yalnız bir nəticəsi var- Bakı özünün olanı özünə qaytaracaq.

Bundan sonra Nikol Paşinyan parlamentdə tezisini irəli sürməyə başladı ki, ola bilsin ki, bu cür bəyanatlarla Azərbaycan Bakı və İrəvan arasındakı razılaşmalardan, ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanımaqdan imtina edib. Ermənistan XİN rəhbəri xarici dövlətlərin rəsmiləri ilə görüşlərdə də Azərbaycan tərəfindən müəyyən razılaşmaların “pozulduğunu” bəyan etməyə başlayıb. Ümumiyyətlə, İrəvandan yeni heç nə görmürük, eyni havanı çalmağa davam edir...

Ona görə də nəqliyyat marşrutları layihələrinin icrası ilə bağlı hadisələrin necə inkişaf edəcəyini söyləmək çətindir.

Rusiya, ABŞ və Aİ arasında nizamlanma üzrə “şahmat” oyunu davam edir və Moskva görüşü nizamlanma üçün atılan addımlardan biridir. Dünən Slovakiyanın Bratislava şəhərində Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında görüş keçirilib. Orada çıxış edən Qriqoryan bəyan etdi ki, Azərbaycan “maksimalist istəklərdən” əl çəkməlidir. O, yenidən Qarabağ ermənilərinin təhlükəsizliyinin və hüquqlarının “beynəlxalq mexanizm” vasitəsilə “təmin edilməsinin” vacibliyini təbliğ etməyə başlayıb. Deməli, tərəflər artıq qarşılıqlı ərazi bütövlüyünü tanıyıblar. Bu da Moskvada qeydə alınıb və fundamental adlandırılıb. Bəs o halda Ermənistan nə istəyir? Məsələ burasındadır ki, o, Qarabağ ermənilər üçün xüsusi yüksək status “tələb edir”. Ümumiyyətlə, İrəvan artıq bir neçə gündür ki, təkrar edir ki, görürsünüz, Bakı, Ermənistanın sülh müqaviləsinin mətni ilə bağlı yeni təkliflərinə cavab verməyib. Görünür, bu, dəfələrlə təkrarlanır ki, sonralar sülh prosesini pozan Bakıdır deyə beynəlxalq ictimaiyyətə bəyan etsin. Qriqoryan Hacıyevlə görüşdə yenidən “Qarabağ məsələsinə”, Hacıyev isə Azərbaycanın ərazi bütövlüyünü tanıyan Ermənistanın Qarabağa silah göndərməkdə davam etdiyinə işarə edib. Doğrudan da, biz görürük ki, Azərbaycan Laçın yoluna nəzarəti bərqərar etdikdən sonra da Ermənistan və erməni birləşmələri Qarabağa silah-sursat ötürür. Ermənistan Azərbaycana qarşı təxribat törətməkdə davam edir, artilleriya atəşi davam edir.

Qarşıda Aİ sammiti çərçivəsində Kişinyovda Əliyev, Paşinyan, Makron və Şolz arasında potensial görüş var. Azərbaycan isə iştiraka hələ ki, yekun razılığını verməyib. İyulda isə Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin görüşü var. İnanıram ki, Paşinyan hesab edir ki, Azərbaycanla sülh müqaviləsi bağlamaq və imzalamaq üçün ölkə daxilində risklər (razılaşma imzalanacağı təqdirdə xarici oyunçular regionda sabitliyi pozmaq üçün nəsə “düşünə bilərlər”) onun üçün çox yüksək olaraq qalır. Ona görə də onun tezliklə bunu edəcəyini düşünmürəm. Və Qarabağ yolunda Azərbaycanla Ermənistan, Rusiya ilə Qərb arasında “şahmat oyunu” davam edəcək. İrəvan Qərblə nümayişkarənə rəqsini dayandırmır. Rusiya və KTMT-nin tənqidi də dayanmır. Ona görə də Ermənistanın taktikasında böyük dəyişikliklər görmürəm.

Düşünürəm ki, Ermənistan heç bir imzaya razı olmayacaq. Və prosesi ləngitməyə çalışacaq. Eyni zamanda, bayaq qeyd etdiyim kimi, çox güman ki, Azərbaycan Qarabağdakı rus sülhməramlılarının mandatının bitməsini gözləyəcək, Rusiyaya göstərdiyi yardıma görə təşəkkür edəcək, hər şeyi diplomatik, gözəl şəkildə təşkil edəcək, lakin mandatı təzələməyəcək. Rusiya sülhməramlıları gedəcək, Azərbaycan ordusu Qarabağın qalan hissəsini nəzarətə götürəcək. Azərbaycan Respublikasının, prinsipcə, tələsməyə yeri yoxdur. O, işğaldan azad edilmiş ərazilərini bərpa edir. Azərbaycan bu vəziyyətdə yumşaq əlcəkdə sərt əldir. O, ciddi, konstruktiv oyunçudur. O, mütəmadi olaraq öz rəqibinə (xüsusilə Ermənistana münasibətdə- uduzan tərəfə qalib kimi) sülh yolu ilə getməyi təklif edəcək. Amma vəziyyət nəhayət divara dərənirsə və rəqib onun xoş niyyətinə baxmayaraq, bu sülh əlini qəbul etmək istəmirsə, onun istədiyi kimi sülhə məcbur etmək hüququ var.

### İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasında iştirakı haqqında

Azərbaycan Prezidenti İlham Əliyev tarixdə ilk dəfə olaraq Avrasiya Ali İqtisadi Şurasının iclasında iştirak edib. Hesab edirəm ki, bu əlamətdar və çox mühüm hadisədir. Nə qədər qəribə səslənsə də, bəlkə də effektivlik və perspektiv baxımından Putin-Əliyev-Paşinyan görüşündən də əhəmiyyətli hadisədir. Bununla da Əliyev Azərbaycanın Avrasiyanın əsas dövlətləri ilə çoxtərəfli formatda daha da yaxınlaşmağa hazır olduğunu nümayiş etdirdi. Azərbaycan bu gün MDB məkanında bütün qonşuları ilə bu və ya digər dərəcədə konstruktiv münasibətlər qurmağı bacaran dövlətdir. Əliyevə hər yerdə hörmət edirlər. Və bu əhəmiyyətli faktordur. Rusiya da bunu başa düşür, Azərbaycanın siyasi və iqtisadi potensialını, Şərqlə Qərb arasında, türkdilli ölkələr arasında mövqeyini görür. Ona görə də Rusiya üçün Azərbaycanı AİI-də istənilən statusda görmək çox yaxşıdır. Üstəlik, Moskva çoxdan belə maraq nümayiş etdirir və Azərbaycanı dəvət edir. Və bu gün Azərbaycan da gördü ki, dünyanın ciddi transformasiyalar apardığı yeni geosiyasi və geoiqtisadi reallıqlarda AİI dövlətlərinə təkliflərindən yararlana bilər.

*Tərcümə - Elçin Bayramlı*



Mətanət Məmmədova

# Sağ və sol məsələsi

***Bu sağ və sol məsələsi elə bir müşküldür ki, hər gün insanların bu müşküldən nə vaxt xilas olacağı barədə düşünməyə bilmirəm. Çünki hər gün metrodayam, eskalatorda qalxıb-enirəm və sağ-sol məsələsi ilə üzləşirəm.***

Deməli, bu sağ və sol məsələsi üstündə insanlar bir-biri ilə hər gün dalaşır, bir-birilərini təhqir edir, çiyinlərindən vurur ki, yol ver və sair, ilaxır.

Mən də hər gün bu mənzərələri seyr etmək məcburiyyətində qalıram. Çox vaxt gülümsəyirəm, soruşsanız ki, niyə? Cavab verərəm ki, çünki onlar dalaşarkən, bir-birilərini təhqir edərkən, çiyinlərindən vurub “ay qardaş, ay bacı, yol ver” deyərkən məlumat bürosundan da dayanmadan-durmadan bildirilir ki, eskalatorda sağda dayanın, sol tərəfi keçid üçün boş saxlayın. Bax, buna gülməyib, nə edəsən? Amma özümü tez yığışdırmağa çalışıram ki, kənardan baxanlar deyər ki, bunun başı xarab olub, öz-özünə gülür.

Həqiqətən, maraqlı deyilmi? Sizi bilmirəm, mənə çox maraqlı gəlir. Düşünürəm ki, bədbəxtliyə bax ey, insanların əksəriyyəti kardır. Sonra da düşünürəm ki, İlahi, sən bir gör, nələr yaratmısan? İnsanların əksəriyyəti sağı ilə solunu tanımır.

Sonra nə düşünsəm, yaxşıdır? Heç nə. Bu dəfə görürəm ki, məlumatda bu sağ və sol məsələsi təkrarlanır, bunu eşidə-eşidə yanımdakı yenə də yerindən tərpənib qarşımdakı boş yerə keçmir.

O gün iki qadın ta bir-birilərini rüsvay etdilər. Bilmirəm hansının çantası hansına toxunmuşdu, ya hansı yolu kəsmişdi, o biri keçə bilməmişdi, mən enirdim, onlar qalxırdılar. Ta bir-birilərini biabır etdilər. Amma anlaşılırdı ki, məsələ bu sağ və sol məsələsidir.

Qulaqlarıma dedim ki, tez ol, kar ol, eşitmə. Yan-yörəmdəki kişi xeylaqlarından xeyli utandım, elə bildim ki, o sözlər mənim ağzımdan çıxdı. Çünki qadınıq axı. Özümüzə də, ətrafımızdakılara da hörmət etmək vacibdir. Elə kişilər də...

Bəli, neçə vaxtdır bu sağ və sol məsələsini də qələmə almaq istəyirdim, həmin görüntülərdən sonra, dedim, bir qələmi bu məsələyə də toxundurum. Onsuz da bilirəm camaat Tiktoku, Votsapı, İnstagramı qoyub mənim yazımı oxuyan deyil. Amma jurnalistlər bilər bunu, adam görüb yazmayanda özünə rahatlıq tapa bilmir.

Hə, bu sağ və sol məsələsi belədir ki, bunun bir neçə çarəsi var: ya sağ-solumuzu tanımağa çalışmalı, ya məlumat bürosundakı xanımı dinləməli, ya da bir-birimizi təhqir etməklə, çiyinlərimizi yara etməklə məşğul olmalıyıq. Mən yazdım, vəzifəmi yerinə yetirdim, qaldı oxucular. Dediyim kimi, sosial şəbəkələrdən vaxt tapıb bizim də saytımıza qonaq gələ bilsəniz, oxuyun, bəlkə sağ və solunuzu tanımaqda bu yazının sizə faydası ola bilər...

# Uşaqlar Allaha bizdən şikayət edəcək

## "Uşaqlar Günü" təsis edilən dünyada hər 10 saniyədə 1 uşaq aclıqdan ölür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*



*1 iyun Ümumdünya Uşaqlar Gününün qeyd edilməsinin tarixi keçmiş SSRİ ilə birbaşa bağlı olsa da, nədənsə bunu müasir dünyada BMT-nin addımı kimi qələmə verirlər. SSRİ-də 1949-cu ildən uşaq bayramı kimi qeyd edilməyə başlanan bu tarix həmin ilin iyunun 1-də keçirilən qadınların beynəlxalq konfrasında əhəmiyyətli günlər sırasına əlavə edildi. Elə həmin gündən sonra 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb.*







ARAŞDIRMA

1959-cu il noyabrın 20-də BMT-də Uşaq Hüquqları Bəyannaməsi, 1989-cu ildə isə "Uşaq hüquqları haqqında" Konvensiya qəbul edilib. Hazırda 193 dövlət həmin konvensiyaya qoşulub. Yaxşı, bəs uşaqların hüquqlarının kobud şəkildə pozulduğu dünyada uşaqlar nə edir, nə yeyir, nə içir, nə geyinir?

### Hər gün 10 min yetim – dəhşətlidir!

Beynəlxalq hesabatlara görə, dünyada hər gün 10 minə yaxın uşaq yetim qalır, o cümlədən valideyn himayəsindən məhrum qalan uşaqların ümumi sayı təxminən 140 milyondur. Təbii fəlakətlər, aclıq, epidemiyalar, münaqişələr, müharibələr və miqrasiya kimi böhranlar səbəbindən hər gün bu rəqəm daha da artır.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF), Beynəlxalq Əmək Təşkilatı (BƏT), Avropa İttifaqı, Qlobal Müsəlmanlara Yardım Təşkilatı (MGR) kimi beynəlxalq qurumlar və QHT-lərin hazırladığı hesabatlardan ümumiləşdirilmiş məlumatlara görə valideyn himayəsindən məhrum olan yüz minlərlə uşağın həyat təhlükəsizliyi, qidalanma, sığınacaq, təhsil və psixoloji ehtiyaclarını qarşılamaq üçün təcili yardıma ehtiyacı var. Dünya əhalisinin 2,2 milyardını təşkil edən uşaqların müxtəlif səbəblərdən müdafiəsiz qaldığı bildirilir.

### Müsəlmanların "görünməz uşaqlar"ı

Humanitar və Sosial Araşdırmalar Mərkəzinin hesabatına görə, dünyada hər gün 10 min uşaq yoxsulluq və aclıq kimi səbəblərdən ölür. Ölənlərin əksəriyyəti yetim və kimsəsiz uşaqlardır. Yetim qalmağa ən böyük səbəb kimi göstərilən təbii fəlakətlərin son 20 ildə 750 min insanın həyatına səbəb olduğu, bu səbəbdən yüz minlərlə uşağın yetim və ya müdafiəsiz qaldığı vurğulanıb. Bu itkilərin 80 faizinin müsəlman ölkələrində baş verdiyi bildirilib.

Qlobal Müsəlmanlara Yardım Təşkilatının "Bizim Yetimlərimiz" hesabatına əsasən, dünyanın müxtəlif yerlərində heç vaxt qeydiyyatda olmayan və ya valideynləri ölən zaman qohumlarının onlara qulluq göstərdiyi üçün yetim kimi müəyyən edilməyən çoxlu yetimlər var. "Görünməz uşaqlar" adlanan bu vəziyyətdə olan yetimlər də hazırlanan siyahıya əlavə olunduqda dünyada yetimlərin real sayının 400 milyona çatacağı təxmin edilir.

### Təkcə HİV virusu 13 milyon uşağı yetim qoyub

Beynəlxalq Səhiyyə İdarəetmə Birlikləri Təşkilatının araşdırmasına görə, Afrika qitəsində ən çox kimsəsiz uşaq Nigeriyadadır, burada 17,5 milyon yetim uşaq var. Təkcə 2,5 milyon uşaq valideynlərini HİV xəstəliyindən itirdiyinə görə yetim qalıb.

6 milyon yetim uşağı olan Efiopiyada HİV epidemiyasının 14 yaşından kiçik uşaqların yüzdə 44-nün yetim qalmasına səbəb olduğu bildirilir. Uqandada 2,9 milyon uşaq, Syerra-Leonedə 310 min uşaq, Keniyada isə 1 milyon uşaq bu xəstəlik səbəbindən valideynlərini itirib. Dünyada HİV virusu ilə yetim qalan uşaqların sayı 13 milyonu ötüb.

### 300 min uşaq əsgər!

UNICEF-in məlumatına görə, bu gün 30-dan çox ölkədə təxminən 300 min uşaq əsgər döyüşür. Uşaq əsgərlər, silahlı qruplarda yemək bişirmək, məlumat ötürmək, casusluq etmək, bomba hazırlamaq, mina qoymaq kimi bir çox vəzifəni yerinə yetirir. Bəzi hallarda intiharçı və ya hətta seks köləsi kimi istifadə olunur. Onlar ağlasığmaz vəhşiliklərdə iştirak edir və ya bu vəhşiliyə şahid olurlar. BMT-nin məlumatına görə, uşaq əsgərlərdən ən çox istifadə edən ölkələr arasında Mozambik, Konqo, Myanma, Somali, Sierra Lione, Hindistan, Nigeriya, Pakistan, Əfqanıstan, Filippin, Tayland, Cənubi Sudan, Surinam, Mərkəzi Afrika və Liberiya var. Beynəlxalq hesabatlarda əks olunan məlumatlara görə, BMT-nin Uşaq Hüquqları Konvensiyasını ratifikasiya etmiş bu ölkələr qaçqın uşaqları hədəfə çevirir.

Transmilli terror təşkilatları texnologiyanın dəstəyi ilə təbliğatlarını bir çox ölkəyə yaymağı bacarır. Bu təşkilatlar müharibə, qarşıdurma, aclıq, səfalət, təbii fəlakət səbəbi ilə ölkəsindən və ailəsindən uzaq düşmüş uşaqlara çox böyük təzyiq göstərirlər.

### Dünyada 200 mindən çox uşaq işçi

Müharibə və daxili qarşıdurmalar yetimlərin sayını artıran səbəblər sırasındadır. Bu vəziyyətin yaratdığı kütləvi miqrasiya axını ilə müşayiət olunmadan didərgin düşən uşaqlar müxtəlif cinayətkar təşkilatların tələsinə düşürlər. Uşaqları gözləyən təhlükələr arasında ağır əmək, uşaq döyüşçülər, orqan və fahişəlik mafiyası ön plandadır.

Beynəlxalq Əmək Təşkilatının "Uşaq Əməyi" hesabatına görə, dünyada 5-17 yaş arasında ən azı 218 milyon uşaq işçi var və onlardan ən azı 73 milyonu təhlükəli işlərdə çalışır. Son 10 ildə dünyada 2 milyondan çox uşaq münaqişələr nəticəsində həlak olub, 1 milyondan çoxu yetim qalıb, 6 milyondan çox uşaq ağır yaralanıb və qalan ömrünü əlilliklə davam etdirməli olub.

Kimsəsiz qalan uşaqlar hələ də Əfqanıstan, Suriya, Pakistan, Afrika və Yaxın Şərq ölkələrindən qaçaraq başqa gedirlər. Getdikləri ölkələrdə immiqrant uşaqlar müxtəlif qruplar tərəfindən qeyri-qanuni məqsədlər üçün istismar edilir.

### Avropa uşaqların məzarına çevrilir

Avropa İttifaqı Polis Xidməti hələ 2016-cı ildə əksəriyyəti Suriya və Əfqanıstandan olan 63 min qaçqın uşağın Avropaya gəldiyini və onlardan 10 minə yaxınının Avropada itdiyini açıqlamışdı. İtkin uşaqlarla bağlı 26 ölkədə fəaliyyət göstərən "Avropada itkin uşaqlar" adlı beynəlxalq QHT-nin məlumatlarına görə, 2014-2017-ci illər arasında qitədə itkin düşən qaçqın uşaqların sayı 30 min olub. QHT-nin məlumatına görə son 5 ildə xüsusilə Əfqanıstan, Suriya və Eritreyadan 200 min kimsəsiz uşaq Avropaya gəlib. Bu uşaqların 700 nəfəri Avropaya gedən yolda həlak olub.

2019-2021-ci illərdə dünyada 18 min 291 uşaq itkin düşüb. Bu rəqəmlərin ailələrin hüquq-mühafizə orqanlarına xəbərdarlıqları əsasında aparılan qeydlərə əsaslandığını nəzərə alsaq, bildirilməyən və qeydiyyatı olmayan çoxlu sayda kimsəsiz uşaq olduğunu təxmin edə bilərik.

Dünyanın hər yerində zülmə məruz qalan, döyülən, işgəncə görən, istismar edilən uşaqlar var. Dünyanın hər yerində uşaqlar təmizdir, safdır, günahsızdır. Dünyanın hər yerində uşaqlar öləndə, öldürüləndə, ac qalanda, istismar ediləndə insanlığa "tfu!" edirlər səssizcə. Üsyan edə bilmirlər, müqavimət göstərə bilmirlər, özlərini qoruya bilmirlər. Hər gün daha da vəhşiləşən dünyaya etirazları da səssiz olur.

***Lalə Mehralı***

**PS:** *Suriya müharibəsi, 2014-cü il. Bombardmandan yaralı çıxarılmış 3-4 yaşlarında körpə oğlan uşağının son nəfəsində "Mən sizdən Allaha şikayət edəcəm, hər şeyi ona danışacam" deyib can verməsi dünyanın üzünə tüpürmək demək deyildimi?*

# Şeyma Subaşı paylaşdı, 2,9 milyon heyranı izlədi!



*Şeyma Subaşı Misirli milyonçu sevgilisi Mohammed Alsolaussi ilə yayın tətilinə elə indidən başlayıblar. Mayın 18-də nigaha girən cütlük, ilk bal səyahəti üçün Yaponiyanın yolunu tutublar. Sosial şəbəkə hesabında misirli iş adamı olan sevgilisi ilə Tokoidan şəkillər paylaşan Ş. Subaşı sevənləri tərəfindən böyük maraqla qarşılanıb.*

Türkiyə mətbuatı yazır ki, onun bu paylaşımları sosial şəbəkə hesabındakı 2,9 milyon izləyicisi izləyib. Ən maraqlısı odur ki, cütlük Tokiodakı bal ayında qəflətən zəlzələyə düçar olublar. S.Subaşı bu məqamları da sosial şəbəkə hesabında izləyiciləri ilə paylaşıb.

# Kişinin bığı olar?

ARAŞDIRMA

***Əslində, zövqlər kimi bığ-saqqal da mübahisə edilməyəcək bir mövzu olmalıdır. Necə ki, geyinirik, saçımızı darayırıq, imic yaradırıq, bığ saxlayıb-saxlamamaq da eləcə bir növ zövq və ya istək məsələsidir. Təbii ki, saqqal istisnadır. Kişilər tarix boyu iqlim şəraiti, adət-ənənə, dini inanc və şəxsi istək kimi amillərdən asılı olaraq saqqal və bığ saxlayıblar. Qədimdə saqqal və bığ bir yerdə saxlanırdı, saqqalsız bığın ilk dəfə e.ə. 2650-ci ildə Qədim Misir mənbələrində tapıldığı iddia edilir.***





Amma maraqlıdır ki, gənc nəsil əvvəllər bığın-saqqalın nə qədər əleyhinə idisə, indi bığ-saqqal saxlayanlar artıb. Təbii ki, onların arasında bunu imic üçün edən də var, ibadət etdiyi və ya qoşulduğu bir təriqətin qoyduğu qaydalara görə saqqal uzadan da. Ümumiyyətlə, kiçik bir analiz etsək, gənc oğlanların əksəriyyətinin xəfif bığ-saqqal saxladıqlarını görərik. Bığ və saqqal anlaşıyının dünəni, bu günü və sabahı barədə bu yazıda...

## Millətçisiniz, ya solçu?

Maraqlıdır ki, tarix boyunca hər cür dünyagörüşə, ideologiyaya və dini baxışa uyğun bığ tərzləri də formalaşıb. Onlardan bir neçəsini araşdırdıq.

Millətçi bığı – Onlar bığı bir növ cazibə, istisna və diqqətçəkən olmaq üçün saxlayırlar.

Solçu bığı – Onlar ideyalarında, təsəvvürlərində və ifadə etdikləri cümlələrdəki bir cəmiyyətin nümayəndəsinin məhz onlar kimi olacağını ifadə etmək üçün çox sadə bığ saxlayırlar. Demək istəyirlər ki, inqilab, dəyişiklik yalnız xülya deyil. Eyni zamanda, solçuların maddi həzlərə (öpüşmək) bir o qədər marağı olmur deyə bığları da onlara mane olmur.

Sünni bığı - siyasi mənada təsirsiz element anlayışı verir. Yəni nə sağ, nə də sol bir məna ifadə etmir. Qəribə burasıdır ki, bu bığı saxlayanlar yaponlardan sonra ən çox bir-birinə bənzəyən insanlardır.

Şiə bığı - Onlar arasında ən "hörmətli" bığ siqaret tüstüsündən saralmış olanıdır. Böyüklük, özünü olduğundan daha sanballı göstərmək üçün bığ saxlayanlar onlar arasında daha çoxdur.

## Heç bığın da kateqoriyası olar?

Bunlardan əlavə, ümumilikdə bığların bir neçə kateqoriyası var ki, yuxarıda sadaladığımız bığ növləri də bu kateqoriyalar içərisindədir. Heç qaytan, pala, burma, duqlas, badam, çin, pos, kiprik və s. kimi adlar verilən bığ növləri ilə qarşılaşmısınızmı?

Bir az açıqlasaq yəqin ki, ətrafınızda bu cür bığı olan adamların olduğunun fərqinə varacaqsınız. Məsələn, qaytan bığlar alt hissəsi az kəsilmiş, üstdən çox alınmış və ağız kənarlarından aşağı doğru bir az sallanan bığlara deyirlər. Pala bığ alt dodaqların kənarlarından azacıq təmizlənən, üstü uzun qalan və ucları burulan bığlardır. Burma bığ isə nisbətən incə, uzunluğu çox olan və baş və şəhadət barmağın köməyi ilə burulan bığ növüdür. Pos bığlı kişi dedikdə isə, gözünüzün önünə bığı topa olan kişi gətirin, onların bığı burulmur. Məsələn, Stalinin bığı pos bığ idi.



O ki qaldı badam bığlılara, onlar adətən, kənarları təraş edilən, sadəcə, üst dodağın ortasındakı dəlikdə bığ saxlayanlardır. Hitlerin bığını xatırlayın, o bığ növü badam bığı sayılır. Maraqlıdır, duqlas bığı nədir? Bu bığlar üçbucaq şəklində olur, dodaqüstü tüklər qısaldılaraq bu cür forma verilir. Çarli Çaplinin bığlarını xatırlayırsınızmı? Onlar duqlas bığlardır.

Yanağa doğru uzadılan nazik bığlı insanları adətən filmlərdə görürük, onların bığı isə çin bığı adlanır. Son olaraq kirpik bığlı insanları misal çəkə bilərik ki, bu cür kişilərin bığı dodaq üstündə xəfifcə cizgi kimi olur. Eynilə mərhum müğənni Məmmədbağır Bağırzadənin bığları kimi.

## Vaqif Mustafayevi efirdən uzaqlaşdıran bığları

Sovet hakimiyyəti illərində teleməkanda bığlarla bağlı yazılmamış qaydalar vardı. Aparıclar və qonaqlar böyük ölçülü bığda efirə çıxa bilməzdilər. Görkəmli bəstəkar, pianoçu, caz-muğam üslubunun banisi Vaqif Mustafazadənin də bu səbəbən efirdən uzaqlaşdırıldığı da söylənilirdi. Sənətkar fərqli xarici görünüşü, qıvırcıq saçları, böyük bığları ilə həmişə diqqət çəkirdi və sovet senzurasının hədəfinə düşürdü. Efirə çıxmaq üçün ona bığını qırxdırmalı olduğunu deyiblər. Böyük cazmen buna görə ağır stress keçirib.

Nasist Almaniyasının lideri Adolf Hitleri tarixə və yaddaşlara həkk edən xüsusiyyətlərindən biri də bığları idi. Lakin Hitler bu bığ formasının ixtiraçısı deyil. XX əsrin birinci yarısında, xüsusilə də, hərbçilər arasında bu cür bığ çox dəbdə idi. Sovet İttifaqında bu cür bığ Hitler və Almaniya ilə düşmənçilikdən çox-çox əvvəl yayılmışdı.

Aydındır ki, özü də cəlbedici bığa sahib olan Stalin başqalarının bığ üslubuna da qarışa bilmirdi. Hətta bir əfsanə var ki, maraqlı bığları olan Sovet İttifaqı Qəhrəmanı marşal Semyon Budyonnı təsadüfən bığının bir kənarını yandırır, buna görə bütövlükdə bığlarını qırxmaq istəyəndə Stalin ona deyir: "Onlara toxunmayın. Bu, indi sizin yox, xalqın bığıdır".

Lakin Stalin ətrafında saqqallı adam görmək istəmirdi, o bundan narahat olurdu. Onun məşhur sovet funksioneri və yaxın yoldaşı Lazar Kaqanoviçin saqqal uzatmağa başladığını görüb, onu öz əlləri ilə qırxacağı ilə hədələməsi barədə danışanlar da vardı.

Ümumiyyətlə, saqqal və bığ uzatmaq tarix boyu çox müzakirələrə səbəb olub. Təraş vərdişi yarandıqdan sonra müxtəlif ölkələrdə kəsilməsinə etiraz edənlərin saqqal və bığları qanunun gücü ilə tez-tez kəsilirdi. Məsələn, 1447-ci ildə İngiltərə qanunu kişilərdən yuxarı dodaq tüklərini kəsməyi tələb etdi. Ancaq təxminən 400 il sonra, bu dəfə ingilis əsgərlərinə bığlarını kəsmək qadağan edildi. 1838-ci ildə Bavariya kralı öz ordusundakı kişilərə bığ saxlamağı qadağan etdi.

Tarixin müxtəlif dövrlərində bığ- saqqalı bir növ tərzinə və imzasına çevrilən məşhurlar da olub. Albert Eynşteyn, Mark Tven, Çarli Çaplin, Hitler, Stalin, Maksim Qorki, Salvador Dali tarixin ən məşhur bığlı simalarındandır.

***Lalə Mehralı***

## Təbrik edirik!



*Qönçəydin, açıb gül oldun, nəhayət bir yaşına qədım qoydun. Şirin, şəkər nəvəmiz Osman, səni 1 yaşının tamam olması münasibətilə babaların İnşəallah, Zakir, nənələrin Cəmilə və Mənsurə ürəkdən təbrik edir, sənə bir ömür boyu səadət və xoşbəxtlik dolu günlər arzu edirik. Arzu edirik ki, həyatda bəxtin, yolun açıq olsun. Ad günün mübarək!*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**